**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HƏŞTƏRXAN XANLIĞI (YARANMASINDAN İŞĞALINA QƏDƏR TARİXİ)

İxtisas: **5502.01 – Ümumi tarix**

Elm sahəsi: **Tarix**

İddiaçı: **Kürşad Ahmet oğlu Köse**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Bakı dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Əsməd İmammməmməd qızı Muxtarova**

Rəsmi opponentlər: tarix üzrə elmlər doktoru, dosent
**Sevinc İsrafil qızı Əliyeva**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Əfşan Heydər qızı Şəfiyeva**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Gülxanım İbrahim qızı Qarayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
____________ **İbrahim Xudaverdi oğlu Zeynalov**

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
____________ **Kəmalə Telman qızı Nəcəfova**

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
____________ **Aidə Rəhim qızı Bağırova**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"22" 11 2025

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Böyük Moskva knyazlığının yüksəlməsi və bunun nəticəsində Böyük knyaz IV İvanın 1552-ci ildə əvvəla Qazanı və sonra da 1556-cı ildə Həştərxanı işğal etməsi türk dünyası üçün bədnam bir proses başlatdı. Qızıl Orda xanı Özbək xanın XIV əsrin əvvəllərində Moskva knyazlarına bütün rus knyazlıqlarının vergilərini yığma hüququnu verməsi ilə ruslar arasında ilk dəfə mərkəzi Rusiya fikri formalaşmaya başladı və bu hadisə sonrakı əsrlərdə Rusiyanın böyük dövlət olma ideyasını gücləndirdi. Qızıl Orda xanları güclü olduqları ilk dövrlərdə Moskvaya verdikləri bu üstünlük hüququndan istifadə etsələr də Qızıl Orda dövləti zəifləməyə başlayanda Moskva knyazlığı bunu öz xeyrinə çevirdi. Moskva digər knyazlıqları ətrafında birləşdirdi və Qızıl Ordanın süqutu nəticəsində yaranan Böyük Orda, Krım, Qazan və Həştərxan xanlığı ilə mübarizəyə başladı. Bu hadisələr Həştərxan xanlığı və digər tatar xanlıqlarının faciəsinə çıxardı. Çar Rusiyası 1556-cı ildə Həştərxanı işğal edəndən 12 il sonra o dövrün ən güclü dövləti Osmanlı imperiyası Həştərxanı ələ keçirməyi istəsə də bu cəhd uğursuz oldu. Rusiya Həştərxanı işğal edəndən sonra böyük iqtisadi imkana malik oldu. I Pyotrun hakimiyyəti dövründə onun əmri ilə Həştərxan quberniyası yarandı.(1717) Bu quberniya 1828-ci ilə qədər varlığını davam etdirdi.

1556-cı ildə Rusiyanın Həştərxanın işğalı bu gün də öz təsirini göstərir. Skiflərdən on əsrdən artıq türklərin hakimiyyətində olan Aşağı İdil ərazisinin və sonra da Krımın ruslar tərəfindən işğal olunması ilə tatar problemi yarandı. 1552-ci ildə Qazanın, 1556-cı ildə Həştərxanın və 1774 və 1783-cü illərdə Krımım işğal edilməsi ilə indiki Rusiya ərazisində yaşayan tatarların hamısı rusların hakimiyyəti altına düşdü. Rusların həm etnik cəhətdən millət kimi formalaşmasında həm də mədəni olaraq inkişafında tatar xanlıqlarının xüsusilə də Həştərxanın hakimiyyət altına alınmasının böyük rolu oldu. Ancaq dövlət idarəçiliyi və mədəni olaraq tatarların ruslara

təsirinə baxmayaraq Rusiya tatarları assimilyasiya etməyə çalışdı. II Yekaterinanın 34 illik hakimiyyəti dövründən başlayaraq tatarlar repressiyalara məruz qaldılar. Bu repressiyalar Sovet hakimiyyəti qurulduqdan sonra da davam etdi. 2014-cü ildə Rusiyanın Krımı işğal etməsi və bu gün hələ davam edən Rusiya-Ukrayna müharibəsini başa düşmək üçün Həştərxanın 1556-cı ildə işğalı hadisəsini yaxşı təhlil etmək lazımdır.

Rusiyada XIX əsrdən başlayaraq Monqol imperiyası, xüsusilə Qızıl Orda, Qazan xanlığı və Krım xanlığı ilə bağlı tədqiqatlar aparılmaya başlandı. Bu xanlıqların Moskva knyazlığı ilə münasibətləri haqqında elmi əsərlər yazıldı. Nikolay Karamzinin 12 cildlik Rus dövlətinin tarixi[1] və Sergey Solovyovun Qədim dövrlərdən Rusiya tarixi adlı əsərləri XIX əsrdə Rusiya tarixi haqqında yazılan ən önəmli əsərlərdir. Karamzin və Solovyov əsərlərində monqolların rus şəhərlərini işğalı, daha sonra müstəqil olan Qızıl orda ilə Qızıl Ordanın süqutundan sonra yaranan Həştərxan xanlığı haqqında məlumat verirdilər. Lakin bu əsərlər rus dövlət sistemini birtərəfli şişirtmək baxımından qərəzli və məhdud idi. Deyə bilərik ki, Qızıl Ordanın süqutundan sonra yaranan xanlıqlardan olan Həştərxanın tarixinə rus tarixçiləri 1950-ci illərə qədər az əhəmiyyət verərək Həştərxan şəhəri və xanlığı haqqında xüsusi tədqiqat aparmamışdılar.

Həştərxan xanlığı barəsində tədqiqat aparmağımızın ən əsas səbəbi daha əvvəl Qızıl Orda və xüsusilə də Həştərxanla bağlı Rusiyada aparılan tədqiqatların obyektivliyi ilə bağlı məsələdir. Rusiya ərazisinin böyük bir hissəsi XIII əsrdən XV əsrə qədər Qızıl Orda dövlətinin hakimiyyəti altında qaldı. 1462-1505-ci illər arasında Böyük Moskva knyazı III İvan dövründə digər rus şəhərləri Moskva Böyük knyazlığının hakimiyyəti altına alındı. Bunun nəticəsində də Rusiya imperiyaya gədən yolda ilk adımı atmış oldu. III İvan Krım, Qazan, Həştərxan və Saraydakı Ulu Orda dövlətlərinə vergi ödəməyə

---

[1]Карамзин, Н. История Государства Российского от правления великого князя Дмитрия Иоанновича (1363-1389) и до первых десятилетий царствования Иоанна IV (1533-1560) / Н. Карамзин. – Астрель Москва: Издательство, - 2010,- 731 с.

davam etsə də, bu tarixdən sonra güclər nisbəti Rusiyanın xeyrinə dəyişməyə başladı. IV İvanın Kazanı və Həştərxanı elə keçirməsi ilə Böyük Moskva knyazlığı Çar Rusiyasına çevrildi. XVII, XVIII və XIX əsrlərdə Rusiya imperiyası genişlənməyə davam etdi və XIX əsrin sonunda Orta Asiyanın da işğalı ilə bu genişlənmə ən yüksək səviyyəyə çatdı. Deyə bilərik ki, XIX əsrdə rus tarixşünaslığının əsasının qoyulmağa başlanması Rusiyanın genişlənmə strategiyasının birbaşa nəticəsi idi. Bu dövrdə Rusiyada Həştərxan, Qızıl Orda və monqollarla bağlı yazılmış əsərlərdə rus tarixçiləri tatarlar haqqında obyektiv tədqiqat aparsa da, daha çox tatar xanlıqlarına açıq-aydın qərəzli münasibət göstərilirdi.

Bu qərəzin ən əsas səbəblərindən biri rusların XIII əsrdən XV əsrə qədər təxminən 200 il tatarların hakimiyyəti altında qalması idi. Rusların bu dövrlərdə əksəriyyətinin monqollara tabe olması əvvəlki rus tarixşünaslığında öz əksini tapsa da, XIX əsrdən başlayaraq yazılan əsərlərdə monqol boyunduruğu terminindən istifadə edilməyə başlandı. Çar Rusiyası dövründə yazılan tarix kitablarında Qızıl Orda və Həştərxan xanlığı kimi dövlətlərin inkişafdan uzaq olduğu, bu xanlıqların rus millətini və dövlətini məhv etməyə çalışdığı kimi fikirlər səsləndirildi. Sovet ittifaqı dövründə kommunist idarəçilik əsasında bu fikirlər ideoloji zəmində daha da dərinləşməyə başladı. Bu zaman yazılan əsərlərdə Qızıl Orda və daha sonra yaranan tatar xanlıqlarından bəhs edilirkən "feodal dövlət" terminindən istifadə edildi. Bütün bunların nəticəsində Çar Rusiyası və SSRİ dövrü tarixşünaslığında bir neçə əsər istisna olmaqla elmi cəhətdən Həştərxanla bağlı obyektiv tədqiqatlar aparılmadı. Sovet ittifaqı dağılıb Rusiya federasiyası müstəqil olandan sonra nisbətən Qızıl Orda və Həştərxan mövzusuna elmi və obyektiv yanaşmalar artdı. Xüsusilə Rusiyanın müstəqilliyindən sonra indiki Tatarıstanın paytaxtı Qazandakı Şərafəddin Mərcani adına Tarix İnstitutunda Qızıl Orda ilə bağlı çoxlu sayda əsər nəşr edildi. Ancaq hələ də tatarlar və Həştərxan xanlığı mövzusunun işlənməsi ilə əlaqəli rus tarixşünaslığında nöqsanlar vardır. Ona görə də bu məsələni obyektiv prizmadan yenidən şərh etməyin zərurəti özünü büruzə verməyə

başladı və həmin zərurət səbəbindən bu mövzunu araşdırmaq qərarına gəldik.

1877-ci ildə V.D. Smirnovun yazdığı ‘’Osmanlı dönəmi Krım xanlığı’’[2] adlı kitab Qızıl Orda dövlətinin süqutundan sonra yaranan xanlıqlar haqqında ilk xüsusi tədqiqat əsəridir. Daha sonra Rus tarixçisi Mixail Hudyakov da 1923-cü ildə “Qazan xanlığı”[3] adlı kitabda Qazan xanlığının siyasi tarixini ayrıca olaraq yazdı. Ancaq deyə bilərik ki, Rusiyada bunun kimi Qızıl Orda dövləti, Monqol imperiyası, Krım və Qazan xanlıqları haqqında yazılan kitablarda Həştərxan xanlığından çox az bəhs edilirdi. Həştərxan xanlığı siyasi iqtidar baxımından kiçik bir dövlət olması ilə yanaşı bu xanlıq haqqında tarixi mənbələrdə kifayət qədər məlumat mövcud deyildir. Bu səbəbdən də Rus tarixçiləri bu mövzu ilə digər xanlıqlar qədər maraqlanmırdılar. Bu mövzu ilk dəfə 1952-ci ildə M.G. Safargaliyevin Həştərxan xanlığı ilə bağlı yazdığı[4] məqalədə müzakirə olundu. 1952-2006-cı illərdə Rusiyada, Türkiyədə və qərb dünyasında Həştərxan xanlığı haqqında müxtəlif məqalələr, kitab fəsilləri yazılsa da bu mövzu ilə bağlı geniş miqyasda ayrıca olaraq tədqiqat aparılmadı. 2006-cı ildə isə rus tarixçisi İlya Zaytsevin nəşr etdiyi ‘’Həştərxan xanlığı’’[5] adlı kitab Həştərxan ilə bağlı yazılan ən əhatəli tədqiqat əsərlərdən biri oldu. Biz dissertasiyamızda onun kitabından xeyli dərəcədə istifadə etmişik. Dissertasiyada ilkin mənbələrdən və yazılmış tədqiqat əsərlərdən istifadə edərək Həştərxan xanlığı mövzusunu türk xalqları dövlətçiliyi müstəvisində yenidən şərh edib yazdıq. Ümid edirik ki, Həştərxan xanlığı mövzusunda tədqiqat

[2]Smirnov, V. D. Osmanlı Dönemi Kırım Hanlığı / V.D. Smirnov. - Çeviren: Ahsen Batur, - İstanbul: Selenge Yayınları, - 2016, - 681 s.

[3]Hudyakov, M. Kazan Hanlığı Tarihi / M. Hudyakov.- Çeviren: Ayaz İshaki, - Hazırlayan: İlyas Kemaloğlu, - Ankara: Türk Tarih Kurumu Yayınları, - 2018, - 323 s.

[4]Сафаргалиев, М.Г. заметки об Астраханском ханстве // - Саранск: Мордовский Государственный Педагогический институт им. полежаева сборник статей преподавателей института, - 1952. 47-84 с.

[5]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, - 301 с.

apardığımız bu iş, gələcəkdə bu mövzuda tədqiqat aparacaq alimlərə köməklik edər.

Rusiyada Qızıl Orda ilə bağlı tədqiqatların aparılması Çar Rusiyası dövründə XIX əsrdə başladı. Bu illərdə Qızıl Orda haqqında çoxlu kitablar yazıldı. Ancaq 1917-ci ildə Çar Rusiyasının dağılması və əvəzinə kommunist hakimiyyətinin yaranması ilə Qızıl Orda ilə bağlı aparılan tədqiqat işlərinin sürəti azalmağa başladı. Sovet dövründə rəsmi ideologiya çərçivəsində rusların Qızıl Ordaya tabe olduqları dövrə monqol-tatar istilası deyilirdi. 1940-cı illərdə Sovet İttifaqı Kommunist Partiyasının qərarı ilə Qızıl Orda ilə bağlı obyektiv tədqiqat aparılması qadağan edildi. 1991-ci ildə Sovet ittifaqı dağılana kimi bu vəziyyət davam etdi. Amma Sovet dövründə xaricdə yaşayan Corc Vernadsky kimi yazarlar “Monqollar və Ruslar”[6] və “Rusiya tarixi”[7] adlı əsərlərində Qızıl Orda tarixi haqqında yazmağa davam etdilər.

Qeyd etdiyimiz kimi, rus tarixşünaslığında Qızıl Orda ilə bağlı elmi tədqiqat işlərinin başlanğıcı XIX əsrə gedib çıxır. 1884-cü ildə V.G. Tizengauzenin yazdığı “Qızıl Ordanın tarixinə aid materiallar kolleksiyası”[8] adlı rus dilindəki əsərin birinci hissəsi nəşr edildi. Bu əsərdə orta əsrlərdəki ərəb salnamələri və Qızıl Ordanın bütün dövrlərini əhatə edən səyahətnamələr bir araya gətirildi. Bu əsərin 1941-ci ildə nəşr edilən ikinci cildində orta əsrlərdəki fars müəlliflərin əsərləri bir araya gətirildi. V.G. Tizengauzenin yazdığı bu kitab Qızıl Orda tədqiqatları üçün çox əhəmiyyətlidir.

Tarixi məsələlərin dərk edilməsində numizmatik məlumatların böyük əhəmiyyəti vardır. A.K. Markovun 1896-cı ildə “Müsəlman sikkələrinin inventar kataloqu”[9] adlı nəşr etdiyi əsərdə

---

[6]Vernadsky, G. Moğollar ve Ruslar / G. Vernadsky. - İngilizceden Çeviren: Eşref Bengi Özbilen, - İstanbul: Selenge Yayınları, - 2019, - 536 s.

[7]Вернадский, Г. Русская История / Г. Вернадский. – Москва, - Новая История, - 1997, - 542 с.

[8]Тизенгаузена, В. Сборник Матерыалов относящихся к истории золотой орды / В. Тизенгаузена. - Том I, - 1884. 563 с.

[9]Марков, А.К. Инвентарный Каталог Мусульманских Монет Имп / А.К. Марков. - Эрмитажа: Спб, -1896, - 872 с.

Qızıl Orda şəhərlərində, o cümlədən, Həştərxanda zərb olunmuş sikkələrin kataloqu vardır. Bu sikkələr dövlət tarixi mənzərəsini yaratmaqda böyük tarixi əhəmiyyətə malikdir.

Fedorov-Davidovun başçılığı altında arxeoloqların Aşağı İdil ərazisindəki Qızıl Orda şəhərlərində geniş miqyaslı arxeoloji qazıntıları nəticəsində bu ərazidə keramikalar, qablar və çoxlu kommersiya materialları tapıldı. Bu tapıntılara əsaslanaraq Fedorov-Davidov "Aşağı Volqa şəhərləri-Keramika-Ticarət-Həyat"[10] adlı faydalı bir əsər nəşr etdirdi.

Qızıl Ordaya həsr edilmiş tədqiqatlardan olan tarixi coğrafiyaya aid əsərlər böyük önəm kəsb edir. Tarixi coğrafiya əsərləri vasitəsilə şəhərlərin coğrafi mövqeyi, harada yerləşdiyi, sərhədləri ilə bağlı əlavə məlumatlar ala bilirik. Bu əsərlərdən ən əhəmiyyətlisi XX əsrin əvvəllərində V.V. Bartold tərəfindən yazılan "Tarixi Coğrafiya haqqında tədqiqatlar"[11] adlı kitabdır. Burada Həştərxan haqqında da qısa məlumat verilir.

V.L. Yegorovun 1987-ci ildə yazdığı "Qızıl Ordanın Tarixi Coğrafiyası (XIII-XIV əsrlər)"[12] adlı əsəri əhəmiyyətli bir tədqiqatdır. Yegorov bu kitabında bütün Qızıl Orda ərazisində tapılan arxeoloji materiallar ilə orta əsrlərə aid yazılı tarixi mənbələri müqayisə edir və bunun nəticəsində Qızıl Orda şəhərləri haqqında ətraflı məlumat verir. Yegorov Həştərxanın orta əsrlərdə yeri və burada tapılan materiallar haqqında da geniş məlumat verir.

A.Y. Yakubovskinin 1937-ci ildə yazdığı "Qızıl Orda və Süqutu"[13] adlı əsər Qızıl Orda haqqında yazılan geniş həcmli

---

[10]Федоров-Давыдов, Г.А. Золотоордынские Города Поволжья. М / Г.А. Федоров-Давыдов, - 1994. - 229 с.

[11]Бартольд, В.В. Работы по Исторической Географии / В.В. Бартольд. – Москва: Российская Академия Наук Отделение Истории Отделение Литературы И языка, - 2002, - 711 с.

[12]Егоров, В.Л. Историческая География Золотой Орды в XIII-XIV вв. / В.Л. Егоров. - Москва: Урсс, - 2010, - 243 с.

[13]Yakubovskiy, A. Y. Altın Ordu ve Çöküşü / A.Y. Yakubovskiy. - 2.baskı, - Çeviren: Hasan Eren, - Ankara: TTK Yayınları, - 2000, - 277 s.

əsərlərdən biridir. A.Y. Yakubovski kitabında yalnız Qızıl Ordanın siyasi tarixindən bəhs etmir. O, həmçinin Qızıl Ordanın mədəni həyatı, Qızıl Orda şəhərləri haqqında da ətraflı məlumat verir. Əmir Teymurun Həştərxana və digər Qızıl Orda şəhərlərinə yürüşü haqqında da əsərdə geniş şərhlər vardır. Türk xalqlarının tarixini doğru-düzgün, qərəzsiz öyrənmək baxımından A.Y. Yakubovskinin haqqında danışılan əsərinə Türkiyə Respublikasında da ciddi önəm verilmiş və bu əsər Türkiyədə dəfələrlə nəşr edilmişdir.

A.N. Nasonovun 1940-cı ildə yazdığı "Monqollar və Ruslar"[14] adlı kitabında Qızıl Orda tarixindən bəhs edən əhəmiyyətli bir əsərdir. Bu kitabda monqolların şərq yürüşündən, Qızıl Orda dövlətinin ilk dövrlərində monqolların Cənub-qərb və Şimal-şərqdəki rus knyazlıqları ilə siyasi münasibətlərindən, monqolların ruslara olan təsirindən və Həştərxanda 1374-1375-ci ildəki Hacı Çərkəzin fəaliyyətlərindən bəhs edilir.

Corc Vernadskynin 1953-cü ildə nəşr edilmiş Monqollar və Ruslar adlı kitabı Monqol imperiyasının yaranması, Cuçi ulusu, Batı və Bərkə xan dövrləri, Qızıl Ordada dövlət və cəmiyyət quruluşu, monqol hakimiyyətinin ruslara təsiri kimi mövzular əsasında yazılmışdır. Bu əsərdə monqolların iqtisadiyyat, dövlət idarəçiliyi kimi məsələlərdə ruslara təsirləri ətraflı izah edilir.

Konkret olaraq Həştərxan xanlığının tarixinə gəlincə, tədqiqatçıların əsərlərində Həştərxan xanlığının banisinin kim olduğu, xanlığın nə vaxt yarandığı, xanlığın sərhədləri, Həştərxan xanlarının adları və s kimi mövzularda razılıq yoxdur. Bunun ən əsas səbəblərindən biri Həştərxan xanlığı haqqında mənbələrdə dəqiq və kifayət qədər məlumatın mövcud olmamasıdır. Bütün bu səbəblərdən tarixçilər arasında Həştərxan xanlığı ilə bağlı bəzi məsələlərdə yekdil fikir yoxdur. Biz tarixi mənbələrə və daha əvvəl bu mövzu haqqında tədqiqat aparan alimlərə əsaslanaraq bu məsələləri yenidən təhlil etdik. Bundan əlavə, ilkin mənbələrdən və elmi ədəbiyyatdan istifadə edib

[14]Насонов, А.Н. Монголы и Русь ( История Татарской Политики На Руси) / А.Н. Насонов. - СССР Москва Ленинград: Издательство Академии Наук, - 1940, - 476 с.

əvvəl az işlənmiş bir mövzu olan Həştərxan xanlığının tarixini yenidən yazmağa çalışdıq.

Məxsusi olaraq Həştərxan xanlığı haqqında yazılan tədqiqat əsərlərlərinə nəzər salsaq Azərbaycanda bu xanlıq haqqında xüsusi tədqiqat əsərləri yoxdur. Ancaq bu məsələdən Türk xalqları tarixi kimi ümumiləşdirici əsərlərdə az da olsa bəhs edilmişdir. Ə.İ. Muxtarova[15], R.V. Əhmədov[16], Q. İ. Bəşirov[17], S. Y. Süleymanova[18] və T.T. Mustafazade[19] eyni adı daşıyan Türk xalqlarının tarixi əsərlərində Həştərxan xanlığından söhbət açılır. Ə.İ. Muxtarova kitabında Həştərxan xanlığının sərhədləri, iqtisadi vəziyyəti və Həştərxanda məskunlaşan xalqlar haqqında ümumi məlumat verir. R. V. Əhmədov da öz kitabında Həştərxan xanlığından qısaca bəhs edir. O, xanlığın banisi və formalaşma prosesi barədə yığcam məlumat verir. Ancaq Azərbaycanda çap edilən bu iki kitab dərslik xarakterində olduğundan burada Həştərxan xanlığı ilə bağlı ətraflı məlumat verilməmişdir. Türkiyədə də Həştərxan xanlığının tarixinin araşdırılmasına səy göstərilmişdir. Mövzunu xüsusi olaraq tədqiq edən türk tarixçiləri arasında D. Koç və Fatih Ünalın adını çəkə bilərik. D. Koçun " Aşağı İdil ərazisində hakimiyyət uğrunda mübarizə və Həştərxan xanlığı"[20] adlı məqaləsi Türkiyədə Həştərxan xanlığı haqqında yazılan ən ətraflı tədqiqat əsəridir. Koç, məqaləsində rus və türk dilində olan ilkin mənbələrdən istifadə edib Həştərxan xanlığı haqqında məlumat vermişdir. Əsasən rus dilli mənbələrdən istifadə edən Koç, xanlığın

---

[15]Muxtarova, Ə. İ. Türk xalqlarının tarixi (Qədim dövr və orta əsrlər) Ali məktəblər üçün dərslik / Ə. İ. Muxtarova. – Bakı: Adiloğlu nəşriyyat, − 2010. − 448 s.

[16]Əhmədov, R. V. Türk xalqlarının tarixi (XIII – XX əsrin əvvəlləri). / R. V. Əhmədov. − Sumqayıt: 2013. − 286 s.

[17]Bəşirov, Q. İ. Türk xalqları tarixi (XIII – XX əsrin əvvəlləri). / Q. İ. Bəşirov. – Bakı: ADPU nəşriyyatı, - 2018. – 327 s.

[18]Süleymanova, S. Y. Türk xalqlarının tarixi (Ən qədim zamanlardan bu günümüzədək) Ali məktəblər üçün dərs vəsaiti / S.Y. Süleymanova. – Bakı: Rus dilindən tərcümə, - 2011. – 352 s.

[19]Мустафазаде Т. Умуми тарих II чилд ( 476-1640-чы иллəр) / Т. Мустафазаде. – Бакы: - 1995. – 251 s.

[20]Koç, D. Aşağı idil boyunda hakimiyet mücadelesi ve Astarhan hanlığı // - İstanbul: Türk Dünyası incelemeleri dergisi, XII/1, - Yaz/2012, - s. 455-494.

yaranmasından əvvəl İdil sahəsindəki siyasi vəziyyət, Həştərxan xanlığının yaranma mərhələsi və xanlığın daxili situasiyası və süqutu haqqında, habelə Həştərxan xanlarının adlarını və onların hansı illər arasında xan olduğunu ətraflı yazmışdır. F. Ünalın ‘’Keçmişdən bu günə As-Tarhan (Həştərxan/Hacı Tərxan)’’[21] adlı məqaləsi D. Koçun məqaləsindən sonra Türkiyədə Həştərxan xanlığı haqqında yazılan ikinci tədqiqat əsəridir. Ünal, Koçdan fərqli olaraq Həştərxan xanlığının süqutundan sonrakı Həştərxanın vəziyyəti haqqında məlumat vermiş, Rusiya tərəfindən işğalından sonra xanlıqdakı daxili qarışıqlıqlardan geniş bəhs etmişdir. Koç və Ünalın məqalələri ilə yanaşı Həştərxan xanlığı haqqında yazılan ümumiləşdirici əsərlərdə də məlumat vardır. R.R. Aratın 1992-ci ildə çap edilən “Türk Dünyası el kitabı”[22] adlı kitabında “Həştərxan xanlığı” adlı məqaləsi vardır. Arat məqaləsində Həştərxan xanlığının banisi, xanların şəcərəsi, xanların adları haqqında ətraflı məlumat vermişdir. R.R. Arat Həştərxan xanlığının nə vaxt yarandığından və onların mənşəyindən qısaca bəhs etmişdir. Y. Öztuna da “Həştərxan xanlığı”[23]adlı qısa məqaləsində Həştərxan xanları və bunların hansı illər arasında xanlıq etdikləri haqqında məlumat verir. Məqalədə Həştərxan xanlığı haqqında ətraflı məlumat yoxdur. M. Sarayın Diyanet İslam Ensiklopediyasında yazdığı “Həştərxan xanlığı”[24] adlı məqalədə Həştərxan xanlığının siyasi tarixi haqqında heç bir məlumat yoxdur. Saray, əsərində bir neçə Həştərxan xanının adını çəkir və daha sonra da xanlığın süquta uğradığını yazır. S. Acar “Doğu Avrupa Türk Tarihi” adlı kitabda yazdığı “Astarhan Hanlığı (1502-1556)”[25] adlı məqalədə D. Koç və F.

---

[21]Ünal, F. Geçmişten Günümüze As-Tarhan (Astrahan/Hacı Tarhan) // - Erzurum: - A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi, - Sayı 38, - 2008, - s. 227-252

[22]Arat, R. R. Astırhan Hanlığı: [3 cilddə] / R. R. Arat. – Ankara: Türk Dünyası El Kitabı 2. baskı, - TKAE Yay, - c. 1. - 1992. - 415-416 s.

[23]Öztuna, Y. Astırhan Hanlığı (1466-1557) Devletler ve Hanedanlar İslam Devletleri: [13 cilddə] / Y. Öztuna. - Ankara: T.C. Kültür ve Turizm Bakanlığı Yayınları, - İlave 3. Baskı, - c. 9. – 2005. - s. 552-553.

[24]Saray, M. Astrahan Hanlığı: [44 Cilddə ] / M. Saray. - İstanbul: Türkiye Diyanet Vakfı Yayınları İslâm Ansiklopedisi, - c.3. - 1991. - s. 505.

[25]Acar, S. Astarhan Hanlığı (1502-1556) // Doğu Avrupa Türk Tarihi. - Editörler: Osman Karatay, Serkan Acar, - İstanbul: İstanbul Kitabevi, - 2018. - s.767-779.

Ünal kimi Həştərxan şəhəri və xanlığı haqqında kifayət qədər ətraflı məlumat vermişdir.

Rus dilli tədqiqatlar icmasında İ. V. Zaytsevın 2006-cı ildə yazdığı "Həştərxan xanlığı" və M.G. Safargaliyevin 1952-cı ildə yazığı "Həştərxan xanlığı haqqında qeydlər" adlı əsərləri xüsusilə əhəmiyyətlidir. Deyə bilərik ki, Zaytsevin «Астраханское ханство» adlı kitabı indiyə kimi Həştərxan xanlığı haqqında ən ətraflı məlumat verən tədqiqat əsəridir. Bu kitabda təkcə Həştərxan xanlığının siyasi tarixi deyil, həm də Həştərxan xanlığının iqtisadi, ictimai və mədəni vəziyyəti haqqında da ətraflı məlumat vardır. Zaytsev kitabında rus arxivlərindəki mənbələrdən də istifadə etmişdir. Xüsusilə, Zaytsev, səfirlik kitabı deyilən Həştərxan xanlığının Rusiyadakı səfirlik hesabatlarından istifadə etmişdir. Zaytsevin əsərindən biz də dissertasiyamızda geniş surətdə bəhrələnmişik.

M.G. Safargaliyevin 1952-ci ildə yazığı "Həştərxan xanlığı haqqında qeydlər" adlı məqaləsi Həştərxan xanlığı haqqında yazılan ilk xüsusi əsərdir. Bu məqalədə xanlığın yaranması, siyasi vəziyyəti və yıxılması haqqında qeydlər mövcuddur.

B. Spulerin " Astrakhan"[26] və I. Zaytsevin ingilis dilində yazdığı "Astrakhan"[27] adlı məqalələrdə də Həştərxan şəhəri və xanlığı haqqında kifayət qədər məlumat verilmişdir.

Həştərxan və Həştərxan xanlığı haqqında məlumat verən mənbə bazası o qədər də yetərli deyildir. Buna baxmayaraq yazdığımız dissertasiyada əlimizdə olan mənbələrdən maksimum şəkildə istifadə etməyə çalışmışıq. Aşağı İdil ərazisi, Həştərxan şəhəri və Həştərxan xanlığından bəhs edən ilkin tarixi mənbələrdən olan səyahətnamələr və coğrafiyaşünasların əsərləri tarixi sənəd olaraq olduqca əhəmiyyətlidir. Səyahətnamələrdə səyyah bəzən subyektiv

---

[26]Spuler, B. Astrakhan [Volume 1, A-B] / B. Spuler. - Leiden : The Encyclopaedia of Islam, New Ed. Edited by. H.A.R.Gıb, J.H.Kramers, E.Levi-Provençal, J.Schacht, - E.J. Brill, - 1986. - 721-722 p.

[27] Zaytsev, I. Astrakhan // Boston: The Encyclopaedia of Islam Three Ed. By Gudrun Kramer, Denis Matringe, John Nawas and Everett Rowson L 2010. 109-112 p.

qiymətləndirmələr aparsa da, onlar tarixi hadisələrə aydınlıq gətirməkdə əvəzedilməz mənbələrdir.

Məlumdur ki, Həştərxan şəhəri və Həştərxan xanlığı yaranmadan əvvəl Həştərxan şəhərinin yerləşdiyi bölgədə İdil və Saksın şəhərləri mövcud idi. Ərəb coğrafiyaşünasları X və XI əsrdən Həştərxan şəhəri formalaşmağa başlamazdan əsrlər əvvəl həmin ərazi haqqında məlumat veriblər. Həştərxan şəhəri və xanlığı Aşağı İdil ərazisində yarandığından bölgənin tarixini və İdil ərazisinin iqtisadi əhəmiyyətini bilmək üçün yazdığımız dissertasiya işində Ərəb coğrafiyaşünasları və səyyahların əsərlərindən istifadə etmişik. İdil ərazisi iqtisadi cəhətdən strateji əhəmiyyətə malik olduğundan həm Xəzər dövləti və Qızıl Orda dövləti dövründə həm də Həştərxan xanlığının müstəqillik dövründə tez-tez işğallara məruz qalırdı. Həştərxan xanlığında baş verən siyasi hadisələri və digər dövlətlərin Həştərxan xanlığına hücumlarını və işğal cəhdlərini həqiqi hədəflərini başa düşmək üçün daha əvvəlki hadisələri bilməliyik.

Ərəb coğrafiyaşünasları və səyyahları İbn Fədlan "Risaletü İbn Fadlan fi vasfi'r-rihle" ( İbn Fədlan səyahətnaməsi),[28] İbn Hövqəl, "Kitabül-Mesalik Ve'l-Memalik Kitabu Suretil-Arz" ( Yollar və ölkələr kitabı, Yerin sürəti)[29] və Məsudi Mürucü'z zeheb (Qızıl Çöllər)[30] əsərlərində İdil şəhəri və İdil çayı haqqında kifayət qədər məlumat verir. "Kitabül-Mesalik Ve'l-Memalik Kitabu Suretil-Arz" ( Yollar və ölkələr kitabı, Yerin sürəti) adlı kitabı İstahri 930-932 və 951-951-ci illər arasında yazmışdır. İbn Hövqəl bu kitabı eyni adla zənginləşdirib 977-ci ildə yenidən yazmışdır. Xüsusilə Abbasi xəlifəsinin elçisi kimi 21 iyun 921-ci ildə Bağdaddan hərəkət edən İbn Fədlan 12 may 922-ci ildə Bulqarların ölkəsinə çatdı. 912-ci ildə müsəlman olan Bulqarların xanı Almış onu qarşıladı. İbn Fədlan

[28]İbn Fadlan Seyahatnamesi ve Ekleri / İbn Fadlan. - Çeviren: Ramazan Şeşen, - İstanbul: Yeditepe Yayınları, - 2013, 78 s.

[29]Yörükan, Y.Z. Müslüman Coğrafyacıların Gözüyle Ortaçağ'da Türkler Türklerin Yasadığı ve Türklere Komsu Bölgeler / Y.Z. Yörükan. – Derleyen ve Türkçeye Çeviren: Yusuf Ziya Yörükan, - İstanbul: Gelenek Yayınları, - 2004, - 447 s.

[30]Mesudî, Murûc Ez-Zeheb (Altın Bozkırlar) / Mesudi. – Çeviren: D. Ahsen Batur. - İstanbul: Selenge Yayınları, - 2004, - 275 s.

gördüyü İdil şəhəri və Aşağı İdil sahəsi haqqında əhəmiyyətli məlumatlar verir. Bu məlumatları yeri gələndə aşağıda yazacağıq.

1923-cü ilin payızında Başqırd türkü olan tarixçi Əhməd Zəki Vəlidi Toğan İranın Məşhəd şəhərində İbn Fədlanın yazdığı səyahətnaməni tapdı. Toğan 1935-ci ildə bu əsəri Vyana universitetində doktorluq dissertasiyası olaraq Alman dilində yazdı. Əsər 1949-cu ildə İngilis dilinə və müxtəlif dillərə tərcümə edildi. Səyahətnaməni 2010-cu ildə Ramazan Şeşen Türk dilinə tərcümə etdi. İdil şəhəri haqqında məlumat verən digər bir Ərəb coğrafiyaşünas Məsudidir. O, 943-cü ildə yazdığı "Murûc Ez-Zeheb (Qızıl Çöllər)" adlı əsərində şəxsən ziyarət etdiyi İdil şəhəri və İdil çayından bəhs edir. Bu əsərin çoxlu sayda əlyazma nüsxəsi vardır. Bu kitab 9 cilddə Barbier de Meynard tərəfindən, "Les Prairies d'Or" adıyla 1872-ci ildə Fransız dilində nəşr edildi. Ahsen Batur 2004-cü ildə bu kitabı Charles Pellatın 1964-cü ildə etdiyi tərcüməyə əsaslanaraq nəşr etmişdir. İbn Hövqəl 977-ci ildə yazıb tamamladığı " Kitabü'l Mesalik ve'l Memalik ( Kıtabu Sureti'l Arz) adlı əsərində 961-969-cu illər arasında ziyarət etdiyi İdil şəhərindən və İdil çayından bəhs edir. O, şəhərdəki tikintilər və İdil çayının qolları haqqında ətraflı məlumat verir. Hövqəl kitabını 977-ci ildə tamamladı.

Bu üç coğrafiyaşünasdan 100 il sonra 1135-1136-cı illərdə İdil sahəsi və Başqırd ərazisini ziyarət edən Ərəb səyyah Ebû Hâmid Muhammed El-Gırnâtî yazdığı ''Gırnâtî Seyahatnamesi (Tuhfetu'l-Elbâb ve Nuhbetu'l- A'câb)''[31] adlı əsərdə İdili əvəzləyən Saksın şəhərindən bəhs edir. 1130-1131-ci ildə Saksına gədən Gırnâtî İdil çayının qolları və Saksın şəhərini ətraflı təsvir edir. Gırnatinin bu səyahətnaməsi 1923-cü ildə fransız dilinə, 1990-cı ildə ispan dilinə tərcümə edildi. 2011-ci ilin martında Fatih Sabuncu tərəfindən ərəb dilindən türk dilinə tərcümə edilib nəşr edildi.

XIII əsrdə Böyük Monqol imperiyasının yaranması ilə Avropadan bəzi səyyahlar və səfirlər monqol torpaqlarını ziyarət etməyə başladı. Bunun əsas səbəbi monqolların Macarıstan və Polşa

---

[31]Ebû Hâmid Muhammed El-Gırnâtî, Gırnâtî Seyahatnamesi (Tuhfetu'l-Elbâb ve Nuhbetu'l- A'câb) / El-Gırnâtî. Ebû Hâmid Muhammed. - Hazırlayan ve Çeviren: Fatih Sabuncu, - İstanbul: Yeditepe Yayınları, - 2011, - 222 s.

ərazilərini elə keçirməsi ilə Avropanın böyük bir qorxu hiss etmiş olması ilə bağlı idi. Bu səbəbdən Papa İnnocentius Plano Carpiniyi səfir kimi monqolların Böyük xanı Güyükün yanına göndərdi. Papa İnnocentus monqollarla ittifaq qurmaq istəyirdi. Carpini 1246-cı ildə Batı xan və Güyük xanı ziyarət etdi. Carpini səyahəti əsnasında gördüyü Saksın şəhəri haqqında qısaca məlumat verir. Deməliyik ki onun yazdığı dövrdə monqolların fəthləri davam edirdi və Saksın şəhəri də monqollara müqavimət göstərirdi. Carpininin əsəri "Monqolustan Səyahətnaməsi XIII əsrdə Avropadan Mərkəzi Asiyaya Səyahət''[32] Engin Ayan tərəfindən Dr. Friedrich Risch'in 1930-cu ildə nəşr etdiyi Almanca tərcüməsi əsas alınıb nəşr edildi. Carpininin dediyi müqavimətin nəticəsində Saksın şəhəri məhv edildiyini və bu şəhərin Sumerkend şəhəri ilə əvəz olunduğunu 1254-cü ildə həmin ərazini ziyarət edən Rubrukun yazdığı əsərdən öyrənə bilərik. Rubruk yazdığı səyahətnamədə 1254-cü ildə Böyük monqol xanı Münke xanın yanından qayıdanda gördüyü Sumerkend şəhərindən bəhs edir. Görürük ki, İdil və Saksın şəhərindən sonra həmin ərazidə üçüncü şəhər olan Sumerkend yaranmışdır. Wilhem Von Rubrukun yazdığı "Monqolların Böyük xanına Səyahət XIII əsrdə İstanbuldan Karakoruma Səyahət''[33] adlı əsər Engin Ayan tərəfindən türk dilinə tərcümə edildi.

1333-1334-cü ildə yenə bir Ərəb səyyah İbn Bətutə Qızıl Orda xanı Özbək xan dövründə İdil ərazisini ziyarət etmişdir. İlk dəfə tarixi mənbələrdə Hacı Tərxanın adını çəkən İbn Bətutədir. O, yazdığı "Rıhlətü İbn Bətutə (İbn Bətutə səyahətnaməsi)"[34] adlı səyahətnamədə şəhərin adının mənşəyi haqqında bu gün də qəbul edilən məsləhətdən bəhs edir. Bətutə yazdığı səyahətnamədə Hacı Tərxan (Həştərxan)

---

[32]Carpini, P. Moğolistan Seyahatnamesi 13. Yüzyılda Avrupa'dan Orta Asya'ya Yolculuk / P. Carpini. - Tercüme ve Notlar: Engin Ayan, - İstanbul: Kronik Kitap, - 2018. - 178 s.
[33]Rubruk, W. Von. Moğolların Büyük Hanına Seyahat 1253-1255 / W. Von Rubruck. – Çeviren: Ergin Ayan, - İstanbul: Ayısığı kitapları, - 2001, - 222 s.
[34]Tanci Ebû Abdullah Muhammed İbn Battûta Seyahatnâmesi / Tanci Ebû Abdullah Muhammed İbn Battûta. – Çeviren: A. Sait Aykut, - İstanbul: Yapı Kredi Yayınları, - 2004, - 791 s.

şəhərini ziyarət edir və Hacı Tərxan adının mənası haqqında məlumat verir. İbn Bətutanın səyahətnaməsi 2005-ci ildə Türk dilinə tərcümə edildi.

İbn Bətutə həm də Həştərxan və İdil ərazisini ziyarət edən son Ərəb səyyahıdır. Bətutədən təxminən 100 il sonra Almaniya Bavyeralı Johannes Schiltberger Həştərxanı ziyarət etdi. O, 1427-ci ildə yazılan və 1460-cı ildə Augsburgda (Almaniya) çap edilən " Türklər və Tatarlar arasında (1394-1427)''[35] adlı kitabında Qızıl Orda dövlətindəki daxili çəkişmələr və Həştərxan şəhəri haqqında məlumat verir. Bu səyahətnamə 1879-cu ildə Londonda ingilis dilinə tərcümə edildi. Kitabın Turgut Akpınar tərəfindən türk dilinə tərcümə edilmiş nəşrindən istifadə etdik.

XV əsrin ikinci yarısında ilk dəfə Rus bir səyyahı olan Afanasi Nikitin Həştərxanı ziyarət etdi. Nikitin 1468-ci ildə Rusiyadakı Tver knyazlığından Hindistana səyahət etmiş və "Üç Dənizdən Kənara Səyahət"[36] adlı kitab yazmışdır. Nikitin bu səyahətnamədə Hindistana gedərkən keçdiyi Həştərxandan və Həştərxan xanı Qasım xandan qısaca bəhs edir. Kitab 2008-ci ildə Serkan Acar tərəfindən rus dilindən türk dilinə tərcümə edildi.

Həştərxan ərazisini ziyarət edən bir digər şəxs Venesiya respublikasının səfiri olan Ambrogio Contarinidir. Contarini gənclik illərində İstanbulda yaşamışdı və burda ticarətlə məşğul olmuşdu. Osmanlı imperiyası və Venesiya arasında müharibə başlayanda ölkəsinə qayıdan Contarini Venesiya respublikası tərəfindən Ağqoyunlu hökmdarı Uzun Həsənə səfir kimi göndərildi. Onun vəzifəsi Uzun Həsəni Osmanlılara qarşı təhrik etmək və onu Osmanlılara hücum etməsi üçün inandırmaq idi. Contarinin bu məqsədlə 1474-cü ildə Təbrizə getdi və 1475-ci ilin iyununda Venesiyaya qayıtmaq üçün Təbrizdən ayrıldı. Contarini Təbrizdən Venesiyaya qayıdarkən Həştərxandan keçdi və o, xatirələrində, xüsusilə, Həştərxandakı iqtisadi vəziyyət haqqında ətraflı məlumat

[35]Schiltberger, J. Türkler ve Tatarlar Arasında (1394-1427) / J. Schiltberger. - Çeviren: Turgut Akpınar, - 3. Baskı, - İstanbul: İletisim Yayınları, - 1997, - 215 s.
[36]Nikitin, A. Üç Deniz Ötesine Seyahat / A. Nikitin. - Rusçadan Çeviren: Serkan Acar, - Ankara: Türk Tarih Kurumu Yayınları, - 2019, - 56 s.

verdi. Eyni illərdə Uzun Həsənin yanına göndərilən Caterino Zeno Həştərxan haqqında məlumat vermir. Ancaq türk tarixçisi Tufan Gündüz bu iki əsəri birlikdə tərcümə etmişdir. "Uzun Həsən Fateh Mübarizəsi Dönemində Şərqdə Venesiya Səfirləri Caterino Zeno və Ambrogio Contarininin Seyahətnamələri''[37] adıyla kitab 2006-cı ildə Tufan Gündüz tərəfindən fars dilindən türk dilinə tərcümə edildi.

Osmanlı imperiyasına qarşı ittifaq yaratmaq məqsədi ilə Venesiya respublikası tərəfindən Ağqoyunlu hökmdarı Uzun Həsənin yanına göndərilən digər bir səfir Josaphat Barbarodur. Barbaro əvvəl 1436-1452-ci illər arasında Uzun Həsən hökmdar olmadan tacir olmuş kimi, sonra isə Uzun Həsənin hökmdarlığı dövründə 1474-1478-ci illər arasında şərqə iki səfər etmişdi. Bu səfərlər əsnasında Həştərxandan keçdi və bura haqqında kitabında məlumat verdi. Onun kitabı "Anadolu və İrana Səyahət''[38] adı ilə ilk olaraq 1543-cü ildə İtaliyada nəşr edildi. Daha sonra 1873-cü ildə İngilis dilinə, 1972-ci ildə Fars dilinə tərcümə edildi. Tufan Gündüz 2005-cü ildə bu əsəri Fars dilindən Türk dilinə tərcümə etdi.

Yenə bir Alman diplomat, yazar və səyyah olan Sigismund Von Herberstein 1526- 1527-ci illərdə Moskva Böyük knyazlığını ziyarət etdi. Herberstein yazdığı "Notes Upon Russia: Being a Translation of the Earliest Account of that Country, Entitled Rerum Moscoviticarum Commentarii By the Baron Sigismund Von Herberstein, Ambassador from the Court of Germany to Grand Prince Vasiley İvanovich in the Years 1517 and 1526 / Vol II. (Rusiyaya dair qeydlər: 1517 və 1526-cı illərdə alman sarayından Böyük knyaz Vasili İvanoviçə gədən Baron Sigismund von Herberstein tərəfindən yazılan ölkənin ən erkən dövrlərdəki povestinin tərcüməsi)''[39] adlı kitabda

---

[37]Zeno C. Contarini A. Uzun Hasan-Fâtih Mücadelesi Döneminde Doğu'da Venedik Elçileri Caterino Zeno ve Ambrogio Contarini'nin Seyahatnâmeleri // C. Zeno, A. Contarini. - Çeviren: Tufan Gündüz, - İstanbul: Yeditepe Yayınları, İstanbul, - 2009, - 152 s.

[38]Barbaro, J. Anadolu'ya ve İran'a Seyahat / J. Barbaro. - Çeviren: Tufan Gündüz, - 2. baskı, - İstanbul: Yeditepe Yayınları, - 2009. - 120 s.

[39]Notes Upon Russia: Being a Translation of the Earliest Account of that Country, Entitled Rerum Moscoviticarum Commentarii By the Baron Sigismund Von

Həştərxanın iqtisadi vəziyyəti və şəhərin harada yerləşdi ilə bağlı məlumat verirdi.

1556-cı ildə Həştərxan xanlığının süquta uğramasından sonra da səyyahlar Həştərxan şəhəri və Həştərxan xanlığının ərazisini ziyarət etməyə davam etdilər. Jenkinson və Övliya Çələbinin əsərləri Həştərxan xanlığı və Həştərxanda məskun olan xalqlar haqqında məlumat verən önəmli mənbələrdir. 1558-ci ildə İngilis səyyah və diplomat Anthony Jenkinson " Early Voyages and Travels to Russia and Persia (Rusiya və İrana erkən səyahətlər)"[40] adlı kitabında Həştərxan şəhəri haqqında məlumat verirdi. Jenkinson bu illərdə Həştərxanda baş verən taun xəstəliyindən bəhs edirdi.

Həştərxandan bəhs edən son səyyah Övliya Çələbidir. Həştərxan xanlığının süquta uğramasından 100 il sonra 1666-cı ildə Övliya Çələbi Həştərxanı ziyarət etdi. Övliya Çələbi Həştərxan adının necə formalaşdığı və Həştərxanda yaşayan xalqlar ilə əlaqəli ətraflı məlumat verir.[41]

Həştərxan şəhəri və Həştərxan xanlığı haqqında məlumat verən digər ilkin tarixi mənbələrdən biri də Rusların yazdığı kilsə salnamələridir. Ruslar xristianlığı qəbul etdikdən sonra Bizans imperiyası ilə münasibət qurdular və onlar kimi salnamə yazmağa başladılar. Bu salnamələr Rus Pravoslav kilsəsinin rahibləri tərəfindən yazıldıqları üçün mühafizəkar xristian mentalitetini əks etdirir və bir tərəflidir. Buna baxmayaraq içində önəmli tarixi məlumatlar vardır.

Dissertasiyamızda istifadə etdiyimiz Həştərxan şəhəri və Həştərxan xanlığındakı hadisələrin yazıldığı salnamələrdən çap edildiyi ilə görə ilk salnamə Sofiskaya salnaməsidir. Bu salnamə XV

---

Herberstein, Ambassador from the Court of Germany to Grand Prince Vasiley İvanovich in the Years 1517 and 1526 / Vol II. Translated and Edited by R.H. Major – London: 1851. - 266 p.

[40]Early Voyages and Travels to Russia and Persia by Anthony Jenkinson and Other Englishmen / Vol: I, Edited by: E. Delmar Morgan, Member of the Hakluyt Society; and C.H. Coote, of the British Museum, Publisher: Burt Franklin, New York: 176 p.

[41]Evliya Çelebi. Günümüz Türkçesiyle Evliya Çelebi Seyahatnamesi: Viyana, Eflak-Boğdan, Bükreş, Ukrayna, Kırım, Bahçesaray, Çerkezistan, Dağıstan, Kalmukistan, Saray, Moskova / Evliya Çelebi. - 7.kitap 2. Cilt, - Hazırlayan: Seyit Ali Kahraman, - İstanbul: Yapı Kredi Yayınları, - 2003, - 711 s.

XVI əsrlərə aid digər rus salnamələrindən tərtib edilib Moskvada nəşr edilmişdir. Salnamə öz adını Novqorod yepiskopluğunun nəzarətində olan "Sofiskiy Dom" monastırından almışdır. Salnamədə 862-1534-cü illər arasında Rus tarixindəki hadisələr izah edilir. Biz də Sofinskaya salnaməsinin 1853-cü ildəki[42] nəşrindən istifadə etdik. Salnamədə Həştərxan xanı Qasım xanın Moskva Böyük knyazı III İvana qarşı Uqra döyüşündə qoşun yürüdən əmisi Qızıl Orda xanı Əhməd xana kömək etməsindən bəhs edilir. Həştərxan xanlığı ilə bağlı mövzular salnamənin birinci cildində yer almışdır.

Dissertasiyamızda istifadə etdiyimiz ikinci salnamə "Voskreseniya salnaməsidir''.[43] Bu salnamənin 1542-1544-cü illər arasında tərtib edildiyi təxmin edilir. Surətlərindən biri Rusiya Elmlər Akademiyasının kitabxanasında qorunub saxlanılan və 1658-ci ildə keşiş Nikon tərəfindən Voskresenskiy Novoiyerusalimskiy monastırına hədiyyə edilən salnamə bu adı almışdır. Bu salnamədə 1075-1541-ci illər arasında Rus tarixində baş verən hadisələr anladılır. "Voskresenskaya salnaməsi" Rus salnamələri toplusu içərisində 1856-1859-cu illər arasında nəşr edildi. Bu salnamədə Həştərxan xanlığının banisi Mahmud xanın Krım xanı Hacı Gərayla olan bir döyüşü ilə bağlı qısa bir məlumat vardır.

"Nikonovskaya salnaməsi" adını keşiş Nikondan alır. Rus salnamələri arasında ən əhatəli olanı məhz budur. İlk dəfə 1762-ci ildə

[42]Полное собраные русскихь летописей, -VI. Софийской первой летописи / С.петербург: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том шестой, - 1853, - 358 с.

[43]Полное собраные русскихь летописей, -VII. Продолжение летописи по воскресенскому Списку / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том осьтий, - 1859, - 301 с.

nəşr edilmişdir[44],[45],[46]. Bu salnamədə 1485-ci ilə aid Həştərxan xanlığı, Saraydakı Böyük Orda və Krım xanlığı arasında baş verən döyüşlər haqqında, 1502-ci ildə Qızıl Orda dövlətinin süqutundan sonra Saray şəhərindən Həştərxana gədən şahzadələr haqqında da qısa bir məlumatlar vardır. Deyə bilərik ki, Həştərxan xanlığı haqqında ən əhatəli məlumat verən salnamə "Nikonovskaya salnaməsidir".

XVI əsrin ikinci yarısında yazıldığı təxmin edilən "Lvovskaya salnaməsi" öz adını 1762-ci ildə salnaməni yazan Rus tarixçisi Nikolay Aleksandroviç Lvovdan almışdır. Salnamədə 858-1560-cı illər arasında rus tarixində baş verən hadisələr əks olunmuşdur. İki cilddən ibarət olan salnamədə 1491-ci ildə Qızıl Orda, Krım xanlığı və Həştərxan xanlığı arasında baş verən bir hadisədən qısaca bəhs edilir.[47] Lvovskaya salnaməsində Həştərxan xanı Əbdürrəhmanın taxtan salınması və xanlıq ilə bağlı çoxlu sayda məlumat da vardır (119). Bu salnamənin 1910-cu ildə çap edilən 1-ci cildindən və 1914-cü ildə çap edilən 2-ci cildindən istifadə etdik.

Başqa bir "Stepennya Kniga" salnaməsi 1563-cü ildə Moskva metropoliteni Makariyin nəzarətində keşiş Andreyin başçılıq etdiyi bir heyət tərəfindən Rus Çarı İvan Qrozni üçün yazılmışdır. Bu salnamədə rusların böyük atası Rurikdən başlayıb 1560-cı ilə kimi rus tarixindəki hadisələr yazılır. Salnamə 2 cildən ibarətdir. Biz Həştərxan xanlığı ilə bağlı hər iki cilddən istifadə etdik. Bu salnamədə Krım xanı

---

[44]Полное собраные русскихь летописей, -VII. Продолжение летописи по воскресенскому Списку / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том осьтий, - 1859, - 301 с.

[45]Полное собраные русскихь летописей, - VIII. Летописный сборник, именуемый патрыаршею или никоновскою летописью / С. петербургь: изданное по высочайшему повеленю археографическою коммиссыею, - том двенадцатый, - 1901, - 266 с.

[46]Полное собраные русскихь летописей, - Никаноровская летопись сокращенные летописные своды конца XV века / Москва Ленинград: - российская академия наук институт росийской истории, том двадцать седьмой, - 1962, - 417 с.

[47]Полное собраные русскихь летописей, - Львовская летопись часть первая / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том дватцатый первая половина, - 1910, - 418 с.

Məhəmməd Gərayın 1523-cü ildə Həştərxan yürüşündən qayıdarkən Noqaylar tərəfindən öldürülməsi haqqında ətraflı məlumat verilmişdir.[48]

XVI əsrin ortalarına aid Holmogorskaya salnaməsini kimin yazdığı məlum deyildir.[49] Qazan xanı Məhəmməd Əmin xan və Həştərxan xanlığı haqqında bu salnamədə qısa bir məlumat vardır.

Həştərxan şəhəri və xanlığı haqqında məlumat verən ilkin mənbələrdən biri də "Pasolskaya knigi" deyilən Rus səfirlik hesabatlarıdır. Bu hesabatlarda Rusiyanın xarici ölkələrdəki səfirlərinin və Moskvadan bu səfirlərə göndərilən rəsmi yazılar bu günə kimi mühafizə edilmişdir. Bu hesabatların köhnə Rus dilindəki əsilləri Moskvadakı "rus dövlət arxivində köhnə sənədlər" bölməsində mühafizə edilir. Bu sənədlərin böyük hissəsi Çar Rusiyası və həmçinin Sovet dövründə nəşr edildi. Xüsusilə, Noqay Ordası ilə Moskva Böyük knyazlığı arasındakı diplomatik sənədlərin 1489-1576-cı illərə aid böyük bir hissəsi 1984-2003-cü illər arasında 3 cilddə nəşr edildi. Moskva və Noqay Ordası arasındakı diplomatik əlaqələrdə Həştərxan xanlığının adı tez-tez çəkildiyi üçün biz də mövzumuzla bağlı bu hesabatlardan istifadə etdik[50],[51],[52].

Krım xanlığı-Moskva Böyük knyazlığı arasındakı səfirlik hesabatları 148 cilddən ibarət olan " Rusiya imperiyası tarix cəmiyyətinin məcmuası" adlı toplunun 41 və 94-cü cildlərində nəşr edildi. Bu iki cild, ümumiyyətlə, Krım xanının Moskva Böyük

---

[48]Полное собраные русскихь летописей, - Книга степенная родословыя часть второя / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том дватцать первый второя половина, - 1913, - 708 с.

[49]Полное собраные русскихь летописей, - Холмогорская летопис двинской летописец / Ленинград: - академик наук Ссср, институт истории Ссср, ленинградское отделение, - том тридцать третий, - 1977, - 249 с.

[50]Посольская Книга По Связям России с Ногайской Ордой 1489-1508 гг. / Ссср Москва: Институт Истории Ссср Ан, - 1984, - 87 с.

[51]Посольская Книга По Связям России с Ногайской Ордой 1489-1549 гг. / Дагестанское Махачкала: Книжное Издательство, - 1995, - 355 с.

[52]Посольская Книга По Связям России с Ногайской Ордой (1576г.) / Москва: Российская Академия Наук Институт Российской Истории, - , 2003, - 91 с.

knyazına, Moskva Böyük knyazının Krım xanına göndərdiyi məktubları ehtiva etsə də burada Həştərxandan da geniş sürətdə bəhs edilirdi[53],[54].

Həştərxan şəhərindən və Həştərxan xanlığından bəhs edən o dövrdə yazılan əsərlər də vardır. Bunlardan biri hələ Həştərxan şəhəri yaranmadan əvvəl 1260-cı ildə yazılan Əlaəddin Atamәlik Cüveyninin "Tarix-i Cihangüşa" əsəridir[55]. Bu kitabda Monqol dövlətinin yaranması, Çingiz xan və onun qərb səfəri ətraflı yazılmışdır. Fars dilində yazılmış bu əsər 3 cilddə Leidendə nəşr edilmişdir. Kitab 1988-ci ildə Mürsel Öztük tərəfindən türk dilinə tərcümə edilmişdir.

Fəzlullah Rəşidəddinin təxminən Cüveyninin "Tarih-i Cihangüşa" kitabı ilə eyni tarixlərdə yazdığı "Cami'ut Təvarix"[56] adlı əsər zəngin tarixi mənbədir. Rəşidəddin kitabının ikinci cildində monqolların qərb yürüşündən bəhs edir. Biz bu əsərin 1960-cı ildə fars dilindən rus dilinə tərcümə edilən nəşrindən faydalanmışıq.

Əmir Teymurun hökmdar olduğu 1401-1402-ci illər arasında Nizaməddin Şami tərəfindən fars dilində yazılan "Zəfərnamə"[57] adlı əsərdə Əmir Teymurun 1395-ci ildəki Qızıl Orda üzərinə yürüşündən və Həştərxan şəhərinin məhv edilməsindən bəhs edilir. Bu kitabın Necati Lugal tərəfindən 1987-ci ildə fars dilindən türk dilinə tərcümə edilmiş variantından istifadə etmişik.

---

[53]Сборник императорского русского исторического общество / Санк-Петербург: том десяносто пятый, 1895. - 706 с.

[54]Сборник императорского русского исторического общество / Санк-Петербург: Памятники Дипломатических Сношений Московскаго Государства с Крымского и Нагайскою Ордами и с Турцией, - Том сорока первый, - 1884. 558 с.

[55]Alaaddin Ata Melik Cüveyni (Tarih-i Cihangüşa) / Alaaddin Ata Melik Cüveyni. - Çeviren: Mürsel Öztürk, – Ankara: T.C Kültür Bakanlığı Yayınları, -1998.-632 s.

[56]Рашид-Ад-ДИН. Сборник Летоппсей Том II / Москва Ленинград: Издательство Академии Наук Ссср, - 1960, - 253 с.

[57] Nizamüddin, Şami. Zafername / Şami Nizameddin. - Farsçadan Çeviren: Necati Lugal, - Ankara: Türk Tarih Kurumu Basımevi, - 1987, - 401 s.

Əmir Teymur dövründən bəhs edən digər bir əsər Şərəfəddin Əli Yəzdinin 1425-ci ildə yazılmış “Zəfərnamə”[58] adlı kitabıdır. Bu kitabda da Teymurun 1395-ci ildə Həştərxanı dağıtmasından bəhs edilir. Kitab Ahsen Batur tərəfindən fars dilindən türk dilinə tərcümə edilmişdir.

İbn Ərəbşah, Əmir Teymurun ölümündən sonra “ Acaibül Məqdur”[59] adlı kitabı yazmışdır. Ərəbşahın Teymur haqqında mənfi yaranaşması olduğundan əsərində Teymur haqqında təhqiramiz sözlər işlədir. Bu kitabda da digərləri kimi Teymurun Qızıl Orda yürüşündən və Həştərxanı məhv etməsindən bəhs edilir. Kitab 2012-ci ildə Ahsen Batur tərəfindən ərəb dilindən türk dilinə tərcümə edildi.

Babur imperiyasının banisi və ilk hökmdarı Zahirəddin Məhəmməd Babur tərəfindən Cığatay Türkcəsində yazılan “Baburname”[60] adlı əsərdə Baburun 1494-1529-cu illər arasında hökmdarlıq etdiyi illər arasındakı hadisələr yazılmışdır. Bu kitab 1970-ci ildə Türkiyə Türkcəsinə tərcümə edildi.

Həştərxan xanlığının müstəqillik dövründən yazılan ilkin mənbələrdən biri də Ötemiş Hacının “Çingizname”[61] adlı əsəridir. Əsər Şərqi türk yazısı olan Cığatay dilində XVI əsrdə yazılmışdır. Bu kitabda Həştərxan ilə bağlı önəmli məlumatlar vardır. Bu kitab İlyas Kemaloğlu tərəfindən Türk dilinə tərcümə edildi.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqatın Obyekti- Həştərxan xanlığı, predmeti- XV-XVI əsrlərdə Həştərxan xanlığında baş vermiş ictimai-siyasi hadisələr, xanlığın daxili və xarici vəziyyətidir.

---

[58]Şerefüddin Ali Yezdi. Emir Timur (Zafername) / Şerefüddin Ali Yezdi. - Çeviri ve Notlar: Dr. Ahsen Batur, - İstanbul: Selenge Yayınları, - 2019, - 512 s.

[59]İbn Arabşah. Acâibu’l Makdûr (Bozkırdan Gelen Bela) / İbn Arabşah. - Arapçadan Çeviri ve Notlar: Dr. Ahsen Batur, - İstanbul: Selenga Yayınları, - 2012, - 447 s.

[60]Gazi Zahirüddin Babur / Vekayi Babur’un Hâtıratı: [3 cilddə] / Gazi Zahüriddin Babur. - Ankara: Yayına Hazırlayan: Reşit Rahmeti Arat, - TTK Yayınları, - c. 2. – 1946. - 218 s.

[61]Ötemis, Hacı. Çengiz-nâme / Ötemiş Hacı. – Hazırlayan: İlyas Kamalov, - Ankara: TTK Yayınları, - 2009, - 85 s.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd Həştərxan xanlığının siyasi tarixinin tədqiq edilməsidir.

Buradan çıxış edərək tədqiqatın qarşısında aşağıdakı kimi məqsədlər qoyulmuşdur.

- X əsrdə Həştərxan şəhəri ilə həmin sahədə yerləşən Aşağı İdil ərazisindəki İdil şəhəri və ərəb coğrafiyaşünasların bura ilə bağlı yazdıqlarının öyrənilməsi;
- 965-ci ildə Kiyev knyazı Svyatoslavın hücumu nəticəsində İdil şəhərinin dağıdılması və onun əvəzinə həmin ərazidə Saksın şəhərinin yaranması ilə bağlı məsələlərin öyrənilməsi;
- Monqol imperiyasının yaranması, monqolların birinci və ikinci Qıpçaq yürüşləri nəticəsində Qızıl Orda dövlətinin müstəqil olması və 1335-ci ildə Həştərxan şəhərinin yaranma prosesinin öyrənilməsi;
- Hacı Tərxan (Həştərxan) adının mənası, Qızıl Orda dövlətindəki daxili böhranların dərinləşməsi, Həştərxan xanlığının müstəqil olma prosesinin başlanğıcının öyrənilməsi;
- 1460-cı illərdə Həştərxan xanlığının müstəqil olması, Krım xanlığı, Noqay Ordası, Böyük Ordanın Həştərxana müdaxilələrinin öyrənilməsi;
- 1502-ci ildə Krım xanlığının Böyük Ordanı işğalı və Həştərxan xanlığının bütünlüklə müstəqil olub Krım xanlığı ilə mübarizəyə başlamasının öyrənilməsi;
- Həştərxan xanlığının Moskva Böyük knyazlığı ilə müttəfiq olması və Krım xanı Məmməd Gərayın 1523-cü ildə Həştərxana müdaxiləsinin öyrənilməsi.
- Həştərxan xanlığına Noqay, Rus çarlığı və Krım xanlığının müdaxilələri və xanlığın zəifləyib rus işğalına uğraması kimi xüsusiyyətlərin öyrənilməsidir

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını tarixi, elmi-ictimai, statistik materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil edir. Mövzu üzərində işləyərkən onun tədqiqinə həsr olunmuş mənbələrə, pedaqoji-tarixi materiallara tənqidi yanaşma, müqayisəli təhlil aparma əsas meyar olmuşdur. Dissertasiyada X əsr və XVI əsrin

II yarısında mövzuya aid tarixi hadisələr və proseslər xronoloji və məntiqi ardıcıllıqla izlənilmiş, öyrənilmiş və araşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Həştərxan şəhəri formalaşmadan əvvəl X-XI-XII əsrlərdə Aşağı İdil ərazisinin siyasi və iqtisadi vəziyyətinin təhlili;
- Monqol imperiyasının və Qızıl Orda dövlətinin yaranması nəticəsində tarixi mənbələrdə Hacı Tərxan (Həştərxan) adının çəkilməyə başlanılması və adın mənası;
- Tarixi mənbələrə əsaslanaraq Həştərxan xanlığının banisinin kim olduğu, xanlığın sərhədləri kimi məsələlərin təhlil edilməsi;
- Qızıl Orda dövləti və onun dağılması ilə yaranan xanlıqlar arasında hakimiyyət mübarizəsi və Həştərxan xanlığının Krım xanlığı, Qazan xanlığı, Noqay Ordası ilə siyasi münasibətləri;
- Rus çarlığı, Krım xanlığı və Noqay Ordasının Həştərxan xanlığının daxili işlərinə müdaxilələri və xanlığın Rusiyanın işğalına uğraması.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin hazırlanmasında keçmiş və son dövrlərdə nəşr olunmuş tədqiqat əsərlərindən istifadə olunmuş, eyni zamanda, bir çox fərqli mənbələrdən istifadə edilmiş və müqayisə olunaraq obyektiv tədqiqat işi hazırlanmışdır.

- Həştərxan xanlığı ilə bağlı əvvəlki illərdə bir neçə əsər yazılsa da mübahisəli qalan məsələlər ortaya qoyularaq, bu məsələlərə aydınlıq gətirilməyə çalışılmışdır.
- Xüsusilə, Azərbaycanda Türk xalqlarının tarixi kitablarında, elmi jurnallarda və müxtəlif əsərlərdə Həştərxan xanlığının ictimai-siyasi vəziyyəti haqqında çox az məlumat vardır. Yazdığımız dissertasiya işində bu boşluğu doldurmağa çalışdıq.
- Əlavə olaraq Həştərxan xanlığı haqqında tarixi mənbələri nəzərdən keçirdik və xanlığın vəziyyəti ilə bağlı bəzi mübahisəli mövzuları elmi cəhətdən əsaslandıraraq həll etməyə çalışdıq.
- Həştərxan xanlığı ilə bağlı ən əhəmiyyətli mövzulardan biri olan xanlığın nə vaxt yarandığı və banisinin kim olduğuna aydınlıq gətirməyə çalışdıq.

- İlkin mənbələrdən olan rus dilindəki kilsə salnamələri, arxiv materialları kimi mənbələrdən istifadə edib Həştərxan xanlığının digər xanlıqlar ilə münasibətlərini təhlil etməyə çalışdıq.

Əlavə olaraq Həştərxan xanlığı haqqında tarixi mənbələri nəzərdən keçirdik və xanlığın vəziyyəti ilə bağlı bəzi mübahisəli mövzuları elmi cəhətdən əsaslandıraraq həll etməyə çalışdıq.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə edilmiş elmi nəticələr, Həştərxan xanlığı və onun Rusiya tərəfindən işğalının dərindən tədqiq olunması önəmli elmi-nəzəri əhəmiyyətə malikdir. Dissertasiya işinin əsas müddəalarından dərs vəsaitlərinin hazırlanmasında, problemin müxtəlif tərəflərinə dair gələcək elmi tədqiqat işlərinin aparılmasında və siyasi tarixə dair ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali təhsil müəssisələrində mühazirələrin oxunmasında və seminar məşğələlərinin keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasında yerinə yetirilmişdir. İşin əsas müddəaları haqqında Azərbaycan və Ukraynada keçirilmiş beynəlxalq simpozium və konfranslarda məruzələr edilmişdir. Dissertasiyanın əsas məzmunu müxtəlif vaxtlarda Azərbaycan respublikasında və xaricdə nəşr olunmuş 3 tezis və 5 məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universiteti Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr hissəsindən ibarətdir. Giriş 19 səhifə, I Fəsil 49 səhifə, II Fəsil 36 səhifə, III Fəsil 43 səhifə, nəticə 4 səhifə, istifadə olunmuş ədəbiyyat siyahısı 16 səhifə, əlavələr 3 səhifə, dissertasiyanın ümumi həcmi 172 səhifə, 293.293 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, strukturu və həcmi öz əksini tapmışdır.

Dissertasiya işinin I fəslinin əsas başlığı, **''Həştərxan xanlığının yaranmasına qədər regionun iqtisadi və siyasi həyatı"**-dır. I fəsildə, Həştərxan xanlığı və şəhəri formalaşmadan əvvəl Aşağı İdil ərazisinin ümumi vəziyyəti, monqolların hərbi yürüşü və Qızıl orda dövlətinin yaranması, Qızıl Ordanın müstəqil olması, XIV əsrin əvvəllərində Həştərxan şəhəri haqqında mənbələrin məlumat verməyə başlaması, Qızıl Ordanın zəifləməsi və Həştərxan xanlığının müstəqillik eldə etməsi kimi məsələlər qeyd edilmişdir. Bu fəsildə, üç yarımfəsil vardır:

I fəslin I yarımfəsli **"X əsrdən Qızıl Ordanın yaranmasına qədər Aşağı İdil bölgəsi"** adlanır. Həştərxan xan şəhəri yaranmadan əvvəl həmin ərazidə İdil və Saksın şəhərləri mövcud idi. İdil şəhərindən ilk dəfə Abbasi xəlifəsinin elçisi Əhməd İbn Fədlan bəhs etmişdir. Fədlanın dediyinə görə İdil şəhəri çox böyük idi və şəhərdə müsəlmanlar, xristianlar və yəhudilər yaşayırdı. İdil şəhəri Xəzər xaqanlığının paytaxtı idi və xaqan burdakı sarayda yaşayırdı.[62] 965-ci ildə Kiyev knyazı Svyatoslavın Xəzərlərə qarşı müharibəsi nəticəsində İdil şəhəri dağıdıldı.[63]

İdil şəhərinin dağıdılmasından sonra həmin ərazidə Saksın şəhəri yarandı.1130-1131-ci ildə Saksına gedən ərəb səyyah Gırnati, Saksın haqqında ətraflı məlumat verər. Onun yazdığına görə Saksında ən aşağı 40 Oğuz tayfası mövcud idi və 40 tayfanın hər birinin başında tayfa başçısı var idi. Onların böyük evləri var idi. Saksında müxtəlif

---

[62] İbn Fadlan Seyahatnamesi ve Ekleri / İbn Fadlan. - Çeviren: Ramazan Şeşen, - İstanbul: Yeditepe Yayınları, - 2013, 78 s.47

[63] Yücel, M. İlk Rus Yıllıklarına göre Türkler / M. Yücel.- Ankara TTK Yayınları, - 2007, s.82

millətlərdən olan əcnəbilər, alverçilər və məğribli olan minlərlə uşaq var idi.[64]

I fəslin II yarımfəsli, **“ Qızıl Orda hakimiyyətində Hacı Tərxan (Həştərxan) şəhərinin yaranması’’** adlanır. Yarımfəsildə, Qızıl Orda dövlətinin müstəqil bir dövlət kimi yaranması, XIV əsrin əvvəllərində Həştərxan adının mənbələrdə çəkilməyə başlanması və 1395-ci ildə Əmir Teymurun Həştərxana yürüşü qeyd edilir. Həştərxandan ilk bəhs edən 1333-1334-cü ildə Özbək xan dövründə Qızıl Ordanı ziyarət edən ərəb səyyah İbn Bətutədir. Bətutə yazdığı səyahətnamədə Həştərxan haqqında məlumat verər.[65]

Həştərxan yaranandan bəri tarixi mənbələrdə fərqli adlar almışdı. Bunun ən birinci səbəbi şəhərin adının fərqli dillərdə fərqli tələffüzlərlə yazılmış olmasıdır. İbn Bətutənin 1334-cü ildə şəhəri ziyarətindən XVI əsrə qədər tarixi mənbələrdə bu şəhərə, ümumiyyətlə, Hacı Tərxan deyilirdi.[66]

Əmir Teymur 1391-ci ildə Toxtamış xan üzərində Qunduzca döyüşündə böyük bir qələbə qazansa da, [67] şəhəri məhv etmədi. Ancaq 1395-ci ildəki ikinci Qıpçaq yürüşündə Həştərxanı tamamilə məhv etdi. Əmir Teymur Qızıl Orda xanı Toxtamış xana qarşı yürüşü nəticəsində Krım, Şimali Qafqaz və Aşağı İdil kimi önəmli ticarət sahələrini məhv edərək Qızıl Orda xanlığına böyük bir zərbə vurmaq istəyirdi.[68] Toxtamış xanın 1395-ci ildə Əmir Teymura məğlubiyyət sonra Qızıl Orda dövlətində böyük qarışıqlıq və xaos dövrü başladı.

---

[64]Ebû Hâmid Muhammed El-Gırnâtî, Gırnâtî Seyahatnamesi (Tuhfetu’l-Elbâb ve Nuhbetu’l- A‘câb) / El-Gırnâtî. Ebû Hâmid Muhammed. - Hazırlayan ve Çeviren: Fatih Sabuncu, - İstanbul: Yeditepe Yayınları, - 2011, s.186

[65]Tanci Ebû Abdullah Muhammed İbn Battûta Seyahatnâmesi / Tanci Ebû Abdullah Muhammed İbn Battûta. – Çeviren: A. Sait Aykut, - İstanbul: Yapı Kredi Yayınları, - 2004, s. 329

[66]Zaytsev İ.V. Ortaçağ Kaynaklarında Astrahan Şehrinin Adlandırılmasına Dair //- Çeviren: Serkan Acar, Tarih İncelemeleri Dergisi, C. XXVI, Sayı 2, (2011), s. 608

[67]Şerefüddin Ali Yezdi. Emir Timur (Zafername) / Şerefüddin Ali Yezdi. - Çeviri ve Notlar: Dr. Ahsen Batur, - İstanbul: Selenge Yayınları, - 2019, s.192-193

[68]Yakubovskiy, A. Y. Altın Ordu ve Çöküşü / A.Y. Yakubovskiy. - 2.baskı, - Çeviren: Hasan Eren, - Ankara: TTK Yayınları, - 2000, s. 183

I fəslin III yarımfəsli, **"Həştərxan xanlığının yaranması"** adlanır. Yarımfəsildə, Həştərxan şəhərinin mövqeyi və sərhədləri, Həştərxan xanlığının nə vaxt yarandığı və banisinin kim olduğu qeyd edilir. Rusiya sərhədləri daxilində yerləşən orta əsrlərdə mövcud olan Həştərxan şəhərindən fərqli ərazidə yerləşir. Həştərxan şəhəri XIII əsrin orta və sonundan 1556-cı ildə Rusların Həştərxan xanlığını işğalına qədər İdil çayı deltasında, İdil çayının sağ yanında və indiki Həştərxan şəhərinin yuxarısında olan Şareni Bugor adlı arxeoloji sahəsində yerləşirdi. Ruslar 1558-ci ildə İdil çayının sol sahilində və köhnə Həştərxanın yeddi mil aşağısında yeni bir Həştərxan tikdilər.[69],[70]

Həştərxanın 1395-ci ildə Teymur tərəfindən məhv edilməsinə baxmayaraq, O, XV əsrdə də əhəmiyyətli olmağa davam etdi və yaranacaq Həştərxan xanlığının paytaxtı oldu.[71]

Kifayət qədər tarixi mənbə olmadığı üçün Həştərxan xanlığının nə vaxt və kim tərəfindən yarandığını da müəyyən etmək çətindir.[72] Bəzi tarixçilər xanlığın XV əsrin ikinci yarısında Qızıl Orda dövlətinin zəifləməsi ilə yarandığını bəziləri isə XVI əsrin əvvəllərində Qızıl Orda dövlətinin tamamilə süqutu ilə yarandığını düşünürlər. Biz, Həştərxanı 1466-ci ildə Mahmud xanın müstəqil bir xan kimi idarə etdiyinə inanırıq. Bizim fikrimizcə, Böyük Orda xanı Mahmud xanın 1465-ci ildə Krım xanı Hacı Gəraya məğlub olub Həştərxana qaçmasının ardından qardaşı Əhməd xan Sarayda Böyük Ordanın hökmdarı oldu. Həştərxana qaçan Mahmud xan burada Həştərxan xanlığının əsasını qoydu. Mahmud xandan sonra Həştərxan xanı olan

---

[69]Spuler B. Astrakhan [Volume 1, A-B] / B. Spuler. - Leiden : The Encyclopaedia of Islam, New Ed. Edited by. H.A.R.Gıb, J.H.Kramers, E.Levi-Provençal, J.Schacht, - E.J. Brill, - 1986, p.722

[70]Федоров-Давыдов, Г.А. Золотоордынские Города Поволжья. М / Г.А. Федоров-Давыдов, - 1994, s.35

[71]Викторивич, В. Д. Где Находилась Как называлась Татарская Астрахань ? (о фальсификациях Истории Происхождения Города) // - Гуманитарные Исследования Журнал Фундаментальных и Прик Ладных исследований, - 2012. № 4 (44), - с. 230

[72]Köse, K. Həştərxan Xanlığının Yaranması // - Bakı: Tarix və onun problemləri, - 2021. -№ 1, -Adiloğlu nəşriyyat, s.22

oğlu Qasımın əmisi Əhməd xan ilə mübarizə aparması 1468-ci ildən sonrakı illərdə xanlığın müstəqil olduğu mənasına gələr.

Dissertasiya işinin II fəslini əsas başlığı, **''Qızıl Ordanın süqutu və Həştərxan xanlığı"**-dır. II fəsildə, Krım xanı Məngli Gərayın 1502-ci ildə Saray şəhərini ələ keçirməsi və sonrakı illərdə Krım xanlığının Həştərxan xanlığını ələ keçirmə cəhdləri, Noqay Ordasındakı murzaların Həştərxana hücumları və Həştərxan xanlığının Şimali Qafqaz ilə münasibətləri kimi məsələlər qeyd edilmişdir. . Bu fəsildə, iki yarımfəsil vardır:

II fəslin I yarımfəsli **"Krım xanlığının 1502-ci ildə Saray şəhərinə hücumu və Həştərxanı ələ keçirmə cəhdləri"** adlanır. Yarımfəsildə, Krım xanı Məngli Gərayın 1502-ci ildə Saray və Həştərxanı işğalı, Noqay murzaları arasındakı siyasi çəkişmələr və murzaların Həştərxana hücumları qeyd edilir.

1502-ci ilin iyununda Krım xanı Məngli Gəray Böyük Ordaya hərbi yürüş etdi. Məngli Gəray Şeyx Əhməd ilə döyüşdü və onu məğlub etdi. Ordanı ələ keçirdi.[73] Bu yürüşün nəticəsində Böyük Ordanın paytaxtı Saray şəhəri Krım xanlığı qoşunları tərəfindən məhv edildi və Böyük Orda dövləti süquta uğradı. Bu tarixdən sonra Həştərxan xanlığı tamamilə müstəqil bir dövlət kimi Böyük Ordanın varisi oldu.

Əbdülkərim xan 1504-ci ildən 1508-ci ilə qədər Həştərxanda ya hakimiyyətdə deyildi, ya da Noqay murzası Yamğarcunun nəzarəti altında idi. Böyük rus knyazı III İvan 1504-ci ilin oktyabrında Yamğarcuya göndərdiyi məktubda yazırdı ki, Həştərxan əhalisi, İdil çayındakı rus balıqçılara basqın edərək onları qarət edib. Deməli, Həştərxanı idarə edən Yamğarcu idi.[74]Məktubda Əbdülkərim xanın da

[73]Полное собраные русскихь летописей, - VIII. Летописный сборник, именуемый патрыаршею или никоновскою летописью / С. петербургь: изданное по высочайшему повеленю археографическою коммиссыею, - том двенадцатый, - 1901, s. 256

[74]Посольская Книга По Связям России с Ногайской Ордой 1489-1508 гг. / Ссср Москва: Институт Истории Ссср Ан, - 1984, s.54

adı çəkilmir. Noqay murzası Yamğarcunun arvadı Əbdülkərim xanın bacısı idi.[75]

1515-ci ilin iyun ayında Krım xanı Mehmed Gərəy Həştərxan xanlığı və Noqay Ordası üzərinə yürüş etmək qərarına gəldi. Mehmed Gəray, Həştərxana gedərkən Don çayına çatanda Canıbəy xan və Şigim murzanın Don çayının o biri sahilinə hərəkət etdikləri xəbərini eşitdi. Mehmed Gərəy və şahzadələr fikirləşdi ki, onlar Donun o biri sahilinə getsələr də qışın Don çayının bu tərəfində olacaqlar. Ona görə yürüşdən imtina edib geri qayıtdılar.[76]

Sonrakı illərdə Həştərxan xanı Hüseynin təşəbbüsü ilə Noqay Ordası murzası Agiş və Krım xanı Səadət Gəray arasında ittifaq yarandı. Krımdakı Barın tayfasının başçıları Dövlət bəxti və Əbdürrəhmanın Moskva Böyük knyazına yazdığı məktuba görə Agiş murzadan, Həştərxandan, Qazaxlardan və Çərkəzlərdən, Krıma elçilər gəldi. Nəticədə, Həştərxan xanlığının başçısı olduğu ittifaqa Həştərxan xanlığından başqa Agiş murza, Qazan xanlığı və xanlığın ərazisi, çərkəzlər, Qafqazdakı Tümən xanlığı, tatarlar və Osmanlı ölkəsi daxil idi.[77]

II fəslin II yarımfəsli **“Osmanlı imperiyası, Noqay Ordası, Şimali Qafqaz xanlıqları ilə Həştərxan xanlığı arasındakı siyasi münasibətlər”** adlanır. Yarımfəsildə, Krım xanı Səadət Gəray və Həştərxan xanı İslam Gəray arasındakı müharibələr, Həştərxan xanlığı və Moskva Böyük knyazlığının diplomatik münasibətləri, Osmanlı imperiyasının Həştərxan xanlığı ilə əlaqələri qeyd edilir.

Səadət Gəray çətin mübarizələrdən sonra nəhayət qardaşı İslam Gərayı Oçakovda (Özü və ya Özi, Ukraynanın cənubunda Mikaloviy vilayətində kiçik bir şəhər) mühasirəyə aldı. Bu mühasirədə İslam Gəray qardaşı Səadət Gəraya tabe oldu və iki qardaş sülh

---

[75]Посольская Книга По Связям России с Ногайской Ордой 1489-1508 гг. / Ссср Москва: Институт Истории Ссср Ан, - 1984, s.53

[76]Сборник императорского русского исторического общество / Санк-Петербург: том десяносто пятый, 1895, s.150

[77]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, s. 100-101

bağladılar. Səadət Gəray sülhdən sonra İslam Gərayı Dnepr şəhərinə idarəçi təyin etdi. Səadət Gəray 1529-cu ildə Moskvaya bu hadisələr haqqında məktub yazdı.[78]

1532-ci ildə Səadət Gəray və İslam Gərayın Krımda hakimiyyət uğrunda mübarizəsi yenidən başladı. Osmanlı idarəçiləri Kəfə bəyi Bali bəy və Azov bəyi Şahin bəy bu mübarizədə Səadət Gərayı dəstəkləyirdi. Səadət Gərayın və ona dəstək olan Osmanlı ordusu İslam Gərayın qoşunları ilə Azov dənizinin sahilində üz-üzə gəldi. Səadət Gəray Osmanlı köməyinə baxmayaraq, döyüşdə məğlub oldu. Ölənlər arasında Kəfə bəyi də var idi. Səadət Gəray, 1532-ci ilin mayında İstanbula qaçdı. İslam Gəray Səadət Gərayı məğlub etsə də Osmanlı imperiyasına müqavimət göstərə bilməyəcəyini başa düşürdü. İslam Gəray əvvəldən Qazanda xanlıq edən digər qardaşı Sahib Gərayın Krım xanı olmasına razı oldu. İslam Gəray Krım xanlığında xandan sonra ən əhəmiyyətli titul olan qalqaylığı qəbul etdi.[79]

Həştərxan xanlığı və Moskva Böyük knyazlığı arasındakı münasibətlərə gəlincə 1525-ci ilin əvvəllərində Həştərxan səfirlərinin Moskvada olduğunu Krım xanı Səadət Gərayın Moskva Böyük knyazı III Vasiliyə göndərdiyi məktubdan başa düşə bilərik. Səadət Gəray məktubunda Moskvada həştərxanlılarla yaşayan Can Əhməd adlı şəxsin qayıtmasına icazə verilməsini Moskva Böyük knyazından xahiş edirdi. Həmin şəxsin kim olduğu məlum deyil. Moskvadakı tacirlərin və ya səfirlərin yanında olan bir adam ola bilər. Moskvanın Krımdakı səfiri Nikita Vasiliyeviçin xatirələrinə görə o, Krımda olarkən Krım rəsmiləri Nikitaya Həştərxan və Noqay Ordası haqqında suallar verdilər. Nikita cavabında Böyük knyazın Həştərxan və Noqay Ordasında səfirlərinin olduğunu dedi. Ancaq Krım rəsmiləri Nikitadan bu səfirlərin işləri barəsində daha çox məlumat istədiyində onun qəribə

---

[78]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, s. 106

[79]İnalcık, H. Kırım Hanlığı Tarihi Üzerine Araştırmalar 1441-1700 Seçme Eserleri-XI, - / H. İnalcık. – İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, - 2017, s.84

bir cavab verdiyini görürük. Onun dediyinə görə bu səfirlər gələndə Nikita balaca oğlan idi və bundan xəbəri yox idi.[80]

Osmanlı imperiyası ilə Noqay Ordası arasındakı münasibətlər 1530-cu illərdə başlayır. Osmanlı imperiyası-Həştərxan xanlığı arasındakı əlaqələr də bu dövrə yaranmaya başlayır. Osmanlı padşahı Sultan Süleyman Qanuni 16-25 may 1531-ci ildə Polşa kralı və Litva Böyük dükü I Sigizmunda məktub yazaraq Krım xanı Səadət Gərayla dostluğu haqqında onlara məlumat verirdi. Sultan Süleymanın yazdığına görə Noqay xanı Ebugay qızını Krım xanı Səadət Gəraya vermişdi və bu səbəbdən də Noqay xanı da Səadət Gəray kimi Osmanlı padşahının hakimiyyətində idi. Polşa kralı Sigizmund Noqay xanı və Krım xanı ilə dostluq münasibətləri qurmalı idi.[81]

Dissertasiya işinin III fəslini əsas başlığı,**‘’Həştərxan xanlığının süqutu”**-dur. III fəsildə Həştərxan xanlığındakı daxili çəkişmələr və xanlığın zəifləməsi, Krım xanı Sahib Gerayın Həştərxanı elə kəçirməsi, Rusiyanın Həştərxanı işğalı və xanlığın süqutu kimi məsələlər qeyd edilmişdir. Bu fəsildə üç yarımfəsl vardır.

III fəslin I yarımfəsli **“Həştərxan xanlığındakı daxili çəkişmələr və xanlığın zəifləməsi”** adlanır. Yarımfəsldə 1533-cü ildə Əbdürrəhman xanın Həştərxan xanı olması və Moskva ilə isti münasibətlərin qurulması, 1536-cı ildə Həştərxan xanlığında və Noqay Ordasında hərc-mərclik yaranması qeyd edilir. Əbdürrəhman xan 1533-cü ildə noqayların köməyi ilə Həştərxan xanı oldu. İddialara görə Əbdürrəhman Alçagir murzanın oğlu Keçəl Məhəmməd tərəfindən Həştərxan taxtına çıxarıldı. Ancaq Əbdürrəhman dərhal noqaylara xəyanət etdi.[82]

---

[80]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, s.106-107

[81]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, s.111

[82]Зайцев, И.В. Астраханское Ханство / И.В. Зайцев. – Москва: Российская академия наук институт востоковедения, - Издательская фирма: Восточная литература, 2006, s.117

Əbdürrəhman xan 1533-cü ilin avqustunda Moskva Böyük knyazı III Vasiliyə bir məktub yazdı. Məktubu Əbdürrəhman xanın elçisi Hüdayir gətirdi. Əbdürrəhman xan məktubunda Böyük knyaza dostluq və məhəbbət hisslərini ifadə edirdi. Hüdayir Moskvadan Həştərxana qayıdarkən III Vasili öz elçisini də Hüdayirlə birlikdə Həştərxana yola saldı.[83]

1536-cı ildə Noqay Ordasında və Həştərxan xanlığında böyük bir hərc-mərclik yarandı. Seyid Əhməd və Şeyx Mamay arasındakı mübarizə nəticəsində yuxarıda adını çəkdiyimiz Yamğarcunun nəvələri olan Noqay şahzadələri Sarayçık şəhərinə basqın etdilər və daha sonra Həştərxan xanı Əbdürrəhmana sığındılar. Seyid Əhməd və Şeyx Mamay qüvvələrini birləşdirsələr də, məsələni sülh yolu ilə həll etmək istəyirdilər. Onlar Həştərxan xanı Əbdürrəhmandan şahzadələrin təslim edilməsini istədilər. Bu olmasa Əbdürrəhman xandan bu şahzadələrin şəhərdən çıxarılmasını xahiş etdilər. Seyid Əhməd və Şeyx Mamay Həştərxan xanı Əbdürrəhmanı hədələyərək dedilər ki, əgər bu təklifimiz qəbul edilməsə bütün bəy və murzalarla Həştərxanı işğal edəcək səni də öldürəcəyik. Həştərxana sığınan Alaş, Agiş və onun yanındakı adamlarla Əbdürrəhman xan arasında qarşıdurma yarandı və onlar Əbdürrəhman xanın iki oğlunu girov götürdülər. Digər tərəfdən Alçagir, Keçəl Məhəmməd, Urak və onların uşaqları əmr gözləmədən gəmilərlə hərəkətə keçdi və İdilin bu tərəfinə gəlib Həştərxanı mühasirəyə aldılar. Müharibə bir ilə yaxın davam etdi.[84]

III fəslin II yarımfəsli **“ Krım xanı Sahib Gərayın Həştərxanı ələ keçirməsi”** adlanır. Yarımfəsildə Krım xanı Sahib Gərayın 1546-

[83]Полное собраные русскихь летописей, -VIII. Летописный сборник, именуемый патриаршею или никоновскою летописью / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том тринадцатый первая половина, - 1904, s.72

[84]Трепавлов, В.В. История Ногайской Орды / В.В. Трепавлов. – Казань: Российская академия наук институт российской истории академия наук республики татарстан институт археологии им. А.Х. Халикова ан рт Bıblıotheca Tatarıca, Издательский Дом Казанская Недвижимость, - 2016, s.198-199, s. 198-199

cı ildə Həştərxana yürüş etməsi, Yamğarcu xanın çərkəzlərin köməyi ilə Həştərxanda xan olması qeyd edilir.

Həştərxanda 1545-1546-cı illərdə çevriliş baş verdi. Remmal Hocanın yazdığı “Tarix-i Sahib Gəraya” görə Akkubek Həştərxan xanı ikən Yamğarcu sultan ona basqın edib qətl etdi. Yamğarcu xan onun əvəzinə Həştərxan xanı oldu. Yamğarcunun Həştərxan taxtına çıxması ilə Krım xanlığı-Həştərxan xanlığı münasibətləri getdikcə pisləşdi. Krım xanı Sahib Gəray Yamğarcunun Həştərxan xanı olmasından heç razı qalmadı. Sahib Gəray xan Akkubek xanın öldüyünü eşidəndən sonra deyirdi ki:*” Yamğarcu, xan olmağa nə layıkdır. Anda varub oğlumun birin Ajdarhana (Həştərxan) xan edem deyü dava edərmiş. İmdi ol gəlmədən mən leşker çeküb anda varub el ve vilayetin qarət edüb, yıkub haram etsəm gərəkdir. Çünki siz Krımdan ayağıma gəlmiş şikarımsız”* Sahib Gərayın “siz” deyə bəhs etdiyi Akkubek xanın ölümünü xəbər verən tacirlərdir. Sahib Gərayın bu qədər qəzəbli olmağının səbəbi yeni Həştərxan xanı Yamğarcunun bu insanları qarət etməyidir. Yamğarcu, xan olandan sonra bu tacirlərin yüz min florin malını alıb bu tacirlərdən bir neçəsini qətl etdirdi. Onlardan bəziləri Krıma gedib Yamğarcu xandan şikayət etdilər. Sahib Gəray onlara cavab verdi: *“Behey adamlar, sizdən əvvəl dahi eşitdim. Xalqa zülm edərmiş. hətta bir kaç kərə ana namə göndərib, tənbih etdik mukayyed olmadı. İmdi şimdengerü bizim üzərimizə farz oldu ki anun zulmını yer yüzindən red edü, kendü bildürevüz. Zira bizdən günah getdi. Vilayət xalqının vəbalı anun boynuna olsun. İnşallah-ı taa’la sizin varınız ol zalimdən alıvereyim. Amma siz mənim atlanduğum bilüb, mənim ilə bilə sefer edin! Halinizdən ziyadə toyum edeyim”*[85]

1546-cı ildə Yamğarcu, çərkəzlərin köməyi ilə Həştərxan xanı oldu. 1551-ci ildə noqay murzalarının birinin Moskvaya yazdığı

---

[85]Kâysunî-zâde Nidâî Remmâl Hoca. Târih-i Sâhib Giray Hân (Historie de Sahib Giray, Khan de Crimée de 1532 à 1551) / Kâysunî-zâde Nidâî Remmâl Hoca . - Yayına Hazırlayan: Özalp Gökbilgin, - Ankara: Atatürk Üniversitesi Yayınları, - 1973, s.97-98

məktubda Yamğarcunun çərkəz əsiri olduğunu və daha sonra da çərkəzlərin onunla dost olub ona yurd verdiyini yazırdı.[86]

Sahib Gərayın 1546-cı ildə Həştərxana yürüşünün nəticəsində Həştərxan elə keçirildi. Həştərxan xanı Yamğarcu, arvadlarını və oğullarını özü ilə götürüb gəmi ilə qaçdı. Sahib Gəray Həştərxan sultanlarının bəylərini və arvadlarını əsir tutdu. Səfa Gərayın on yaşlı oğlu da Həştərxanda idi və Krım xanı onu özü ilə götürərək Həştərxanda çoxlu sayda mal və əsir ilə əvvəl Azova, oradan da Krıma qayıtdı.[87]

III fəslin III yarımfəsli **"Rusiyanın Həştərxanı işğalı və xanlığın süqutu"** adlanır. Yarıməsildə rusların irəli sürdüyü Tmutarakan əfsanəsi, Noqay Ordasının köməyi ilə Dərviş Əlinin Həştərxan xanı olması və 1556-cı ildə Rus çarlığının Həştərxanı işğalı və xanlığın süquta uğraması qeyd edilir.

1553-cü ildə ruslar və noqaylar arasında Həştərxanla bağlı danışıqlar zamanı rus diplomatlar Tmutarakan əfsanəsini irəli sürdülər. Onlar Həştərxanı köhnə Tmutarakan adlandırırdılar və rusların fikrincə IV İvanın ata-babalarının keçmiş feodal hakimiyyəti üzərində hüququ vardı. Rəvayətə görə Knyaz Vladimir X əsrdə Tmutarakan bölgəsini oğlu Mistislava miras buraxmışdı. Buna görə əvvəllər Tmutarakan bölgəsi kimi tanınan Həştərxan indi Rusiyanın olmalı idi və IV İvanın buranı elə keçirməyə tam hüququ vardı. Tmutarakan şəhərinin XVI əsrdə Həştərxan olması ilə bağlı heç bir tarixi sənəd yoxdur. Buna görə də rusların Həştərxanı işğal etməsi ilə bağlı irəli sürdükləri bu iddia heç bir tarixi reallığa əsaslanmırdı.[88]

---

[86]Маслюженко, Д.Н. Символы Власти в Источниках по Истории Тюменского Ханства // - Казань, Республики Татарстан: Золотоордынское Обозрение (Golden Horde Review), Научный журнал, - Институт Истории Имени Шигабутдина Марджани Академии Наук, - Главный Редактор: И.М. Миргалеев, - 2016. Том 4 № 2, s.29

[87]Kâysunî-zâde Nidâî Remmâl Hoca. Târih-i Sâhib Giray Hân (Historie de Sahib Giray, Khan de Crimée de 1532 à 1551) / Kâysunî-zâde Nidâî Remmâl Hoca . - Yayına Hazırlayan: Özalp Gökbilgin, - Ankara: Atatürk Üniversitesi Yayınları, - 1973, s.103-104

[88]Martin, J. Medieval Russia 980-1584 / J. Martin. - New York: Cambridge University Press Second Edition, - 2007, s.18

1554-cü ilin oktyabrında noqay murzaları İsmayıl və Inıhın ? elçiləri Teymur və adamları Moskvaya gəldi. İsmail və Inıh murza Rus çarına hörmətlərini və itaətlərini bildirdi. İsmayıl və İnıhın murza Həştərxanda Yamğarcu xanı hakimiyyətdən salacaqlarını və onun əvəzinə Dərviş Əli xanı hakimiyyətə gətirəcəklərini bəyan etdilər.[89] Dərviş Əli Noqay murzaları İsmail, Inıh mirzələrin və rus çarı İvan Qroznınınköməyi ilə Həştərxan xanı oldu.

Dərviş Əli xanın 1554-cü ilin iyul ayında Rusiyanın Həştərxan üzərindəki suverenliyini qəbul etməsi ilə Həştərxan müstəqil bir xanlıq olmaqdan çıxıb Rusiyadan asılı bir vəziyyətə gəldi. Həştərxan xanlığı ilə Rusiya çarlığı arasında sülh müqaviləsi imzalandı. Bu müqaviləyə görə Dərviş Əli xan Rusiyanın Böyük knyazı və çarına sadiq qalacağına söz verirdi. Dərviş Əli hər il Rus çarlığına 40 000 altın xərac və 3000 balıq göndərəcəkdi. Əgər balıqlar göndərilməzsə Həştərxandakı səfirlər balıqları tutub göndərəcəkdi.[90]

Dərviş Əli xan Moskvanın Həştərxan üzərindəki suverenliyini qəbul edib Rusiyaya tabe olsa da işlər çox qısa müddətdə deyişməyə başladı. Dərviş Əli xan, bu əsnada əvvəlki Həştərxan xanı Yamğarcunun Krımda olmasına baxmayaraq, Rusiyaya qarşı Krım xanı Dövlət Gərayla müttəfiqlik qurmağı seçdi.[91]

Rus çarlığı 1556-cı ildə Həştərxanı işğal etdi. Həştərxanı işğal edən rus sərkərdələrin yazdığına görə Rus qoşunları Həştərxana gələndə şəhər boş idi, Həştərxan xanı və əhalisi qaçmışdı və şəhərdə zadəganlar qalmışdı. Dərviş Əli xanın Həştərxandan Moçaka

[89]Полное собраные русскихь летописей, -VIII. Летописный сборник, именуемый патриаршею или никоновскою летописью / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, - том тринадцатый первая половина, - 1904, s.235

[90]Полное собраные русскихь летописей, - Львовская летопись часть второя / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, том дватцатый второя половина, - 1914, s.551

[91]Трепавлов, В.В. История Ногайской Орды / В.В. Трепавлов. – Казань: Российская академия наук институт российской истории академия наук республики татарстан институт археологии им. А.Х. Халикова ан рт Bıblıotheca Tatarıca, Издательский Дом Казанская Недвижимость, - 2016, s.277-278

qaçmasından 5 gün sonra şəhər möhkəmləndirildi və tamamilə bərpa edildi. Onlar Həştərxana gəldiyində şəhər yandırılıb dağıdılmışdı. Feodor Pisemskoy və Timofen Teterin Derviş Əlinin arxasınca getdilər. Həştərxan xanı sahildən 20 verst uzağa qaçdı və gecə gələndə Dərviş Əliyə hücum etdilər və onun ulusundan çoxlu sayda adamı öldürdülər. Səhər vaxtı Dərviş Əli xan noqay murzaları, krımlılar və həştərxanlılarla toplaşdı və İdil çayına gedib bütün gün onlarla vuruşdu. Rus qoşunlarının başçısı olan sərkərdələr, Dərviş Əliyi məğlub etdi və onun oğlanlarını, qızlarını və ulusundan çoxlu sayda insanı əsir tutdular. Bu səbəblə bütün Həştərxan əhalisi şəhərdən qaçdılar.[92] IV İvan ciddi müqavimətə rast gelmədən Həştərxanı elə keçirdi.

Beləliklə 1466-cı ildən 1556-cı ilə kimi müstəqil olan Həştərxan xanlığının müstəqilliyinə ruslar son qoydu və Həştərxan xanlığı süquta uğradı. Həştərxan xanlığının dağıdılması və Həştərxan şəhərinin işğalı ruslar üçün böyük uğur idi. Xanlığın mərkəzi olan Həştərxan şəhəri hücumlardan qoruna bilmək üçün 1558-ci ildə əvvəlki yerindən 12km cənuba, İdil çayının əsas yatağının sol sahilindəki bir adaya köçürüldü.[93]

---

[92]Полное собраные русскихь летописей, - Львовская летопись часть второя / С. петербургь: - изданное по высочайшему повеленю археографическою коммиссыею, том дватцатый второя половина, - 1914, s. 576

[93]Koç, D. Aşağı idil boyunda hakimiyet mücadelesi ve Astarhan hanlığı // - İstanbul: Türk Dünyası incelemeleri dergisi, XII/1, - Yaz/2012, - s.479

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

--Ərəb coğrafiyaşünaslarının IX əsrdə Xəzər dövlətinin hakimiyyəti altındakı İdil şəhərindən bəhs etməyə başlamağına əsaslanaraq Aşağı İdil bölgəsinin strateji əhəmiyyətinin artdığını deyə bilərik.

-- Ərəb coğrafiyaşünaslarının və səyyahlarının dediyi kimi İdil şəhəri X əsrdə qərb-şərq, şimal-cənub istiqamətlərinki ticarətin mərkəzi idi və şəhər çox zəngin bir ərazidə yerləşirdi. Bu şəhər: İdil çayının Xəzər dənizinə töküldüyü sahədə yerləşirdi və bu səbəbdən də Xəzər dənizi və İdil çayı arasındakı ərazidəki ticarət fəaliyyətlərinə nəzarət edirdi.

-- Əlavə olaraq İdil şəhəri Xəzər dövlətinin paytaxtı idi. Zamanla İdil şəhəri əhəmiyyətini itirdi və İdil ilə həmin ərazidə Saksın şəhəri yarandı. Saksın İdil qədər inkişaf edən bir şəhər olmasa da həmin ərazi əhəmiyyət kəsb etməyə davam etdi.

--Saksın şəhərini qısa bir müddət Sumerkent əvəzləmişdir. Bir müddət sonra Sumerkent şəhərinin də İdil və Saksın kimi yoxa çıxdığını və yenə həmin ərazidə Hacı Tərxan (Həştərxan) şəhərinin yarandığını görürük.

--Hacı Tərxan adı tarixi mənbələrdə ilk dəfə 1333-1334-cü ildə çəkilməyə başlanır. Paytaxtı Saray şəhəri olan Qızıl Orda dövləti dövründə Hacı Tərxan getdikcə daha çox əhəmiyyət kəsb etməyə başladı və Həştərxan şəhəri Azov, Krım, Xarəzm kimi Qızıl Orda dövlətinin önəmli ticarət şəhərlərindən biri oldu.

--1333-1334-cü ildən sonra Hacı Tərxan adı rus, türk və qərb mənbələrində Gittarcan, Aci Tarhan, Aztorokan kimi müxtəlif formalarda adlanmağa başladı. Nəticədə şəhər bu gün bizim istifadə etdiyimiz "Həştərxan" formasını aldı. Həştərxan şəhəri 1360-cı ildə Qızıl Orda xanı Bərdibəyin ölümünə qədər fasiləsiz Qızıl Orda dövlətinin hakimiyyətində qaldı.

--Krım xanı Məngli Gərayın 1502-ci ildə Qızıl Orda dövlətinin paytaxtı Saray şəhərini işğal etməsi ilə Qızıl Orda dövləti süquta uğradı və Həştərxan xanlığı tam müstəqil oldu. Qızıl Orda dövlətinin əraziləri Krım xanlığı və Noqay Ordası arasında bölüşdürüldü.

--Həştərxan xanlığı yarandığı vaxtdan süquta uğradığı dövrə kimi Krım xanlığı, Noqay Ordası və Şimali qafqazdakı çərkəz və kabarda xalqlarından asılı bir vəziyyətdə qaldı və bu vəziyyətin nəticəsində Həştərxan xanlığı müstəqil siyasət apara bilmədi. Xüsusilə, Krım xanlarının Həştərxana yürüşləri nəticəsində şəhər bir neçə dəfə məhv edildi. Noqay Ordasındakı və Şimali qafqazdakı bəy və murzalar də Həştərxanın daxili məsələlərinə tez-tez müdaxilə etdi.

--Bu səbəblərdən Həştərxan xanlığı davamlı siyasi qeyri-sabitlik şəraitində qaldı və müstəqil xarici siyasət yeridə bilmədi. Nəticədə xanlıq 1554 və 1556-cı illərdə iki dəfə rus işğalına məruz qaldı. Həştərxan xanlığı 1556-cı ildəki rus hücumu ilə tarix səhnəsindən bütünülə silindi.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı məqalələr, tezislər və konfrans materialı nəşr olunmuşdur:**

**1.** Rus salnamələrinə görə Əmir Teymurun fəaliyyətləri // – Bakı: Tarix, insan cəmiyyət Elmi-nəzəri və elmi-metodik jurnal, – 2020. − № 2 (29), − s. 73-79.

**2.** Rus ve Osmanlı Kaynaklarına Göre Osmanlı Devleti'nin 1569 Astarhan Seferi// – Isparta: Genel Türk tarihi araştırmaları dergisi, − 2020. − C. 2, № 3, − s.63-76.

**3.** Həştərxan xanlarının şəcərəsi// – Bakı: Tarix və onun problemləri, – 2021. −№ 3,-- s. 52-54.– К. : «Видавництво «Гілея», 2020. – Вип. 164 (№ 8-9). − Ч. 1. Історичні науки, − с. 17-18.

**4.** Two reasons fort he expedition to Astrakhan during the reign of Ivan the Terrible in 1554: the Yamgarcu incident and the legend of Tmutarakan// – Київ: Гілея: науковий вісник.

**5.** Həştərxan xanlığının yaranması// – Bakı: Tarix və onun problemləri, – 2021. −№1 ,-- s.22-27.

**6.** Rus Tarihçi Mikhael Hudyakov ve Onun Kazan Hanlığı Tarihi İsimli Eseri// 3. Uluslararası Dede Korkut Türk kültürü, tarihi ve edebiyatı kongresi, – Bakü: 2020. − s. 116-118.

**7.** Ruslara Direnişin Sembolü: Süyümbike Hatun (1516-1554) // 1st International Hazar scientific research conference, – Bakü: 2020. − s.590-592.

**8.** Astarhan Hanlığı ve Kırım Hanlığı arasındaki Siyasi İlişkiler// Taras Shevchenko 6th international conference on social sciences, – Kyiv: 2021. − p.1149-1050.

Dissertasiyanın müdafiəsi 27 dekabr 2023-cü il tarixdə saat 13:00 Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universiteti kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universiteti rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____________ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 2023

Kağızın formatı:A5

Həcm: 69.552

Tiraj:100